Məhəmməd Həşim Kamali

# İslamda təcdid, islah və sivilizasiyaların yenilənməsi



Beynəlxalq İslam Fikri İnstitutu

# İslamda təcdid, islah və sivilizasiyaların yenilənməsi

•

Məhəmməd Həşim Kamali

Beynəlxalq İslam Fikri İnstitutu

İDRAK

"İdrak" İctimai Birliyi

Bakı - 2020

© Beynəlxalq İslam Fikri İnstitutu, 2020
© "İdrak" İctimai Birliyi, 2020

The International Institute of Islamic Thought (USA)
P.O. Box 669, 500 Grove St., Suite 200, Herndon, VA 20170, USA
www.iiit.org

The International Institute of Islamic Thought (UK)
P.O. Box 126, Richmond, Surrey, TW9 2UD, UK
www.iiituk.com

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

ISBN

Tərcüməçi: Natiq Adilov
Redaktor: Ülvi Babasoy
Bədii və texniki tərtibat: Həsən Həsənov

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK/Q-)

# MÜNDƏRİCAT


Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5
Giriş və ümumi anlayışlar . . . . . . . . . . . . . . . . . . . . . . . . 7
Mənası və işlənmə yeri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8
Təcdidin mənşəyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13
İslah və təcdid: XX əsrdəki yanaşmalar . . . . . . . . . . . . . . . . 20
İslamda yenilənmə, müasirlik və təcdid. . . . . . . . . . . . . . . . . 25
Məqaisidi-şəriyyənin (şəriət məqsədləri) uyğunluğu . . . . . . . . . . 30
Təcdid ilə bağlı tənqidlər . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
Dini yenilənmə ilə bağlı arqumentlər . . . . . . . . . . . . . . . . . . 35
Sivilizasiyalarda yenilənmə. . . . . . . . . . . . . . . . . . . . . . . . 40
Nəticə və tövsiyələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 44
Qeydlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48

# GİRİŞ

Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ) və Beynəlxalq Ali İslam Elmləri İnstitutu (BAİEİ) Malayziya İslam hüququ sahəsində məşhur alim və mütəxəssis, professor Məhəmməd Həşim Kamalinin müəllifi olduğu "İslamda təcdid, islah və sivilizasiyaların yenilənməsi" adlı növbəti əsəri təqdim edir. Məhəmməd Həşim Kamali şəriətlə bağlı çoxsaylı əsərlərin müəllifidir. Müəllifin "İslam hüququnun prinsipləri", "Şəriət hüququ: giriş" və "Hədis elmləri" və başqa əsərləri bir çox xarici ölkələrin ingilis dilli universitetlərində dərs vəsaiti kimi istifadə olunur.

Əsərdə sivilizasiyalardakı yenilənmə prosesinin İslam düşüncəsi ilə əlaqəsi tədqiq edilir. Kitabda həm təcdid və islah sözlərinin məna və mənşəyi araşdırılmış, həm də bu anlayışların ictihad ilə əlaqəsi müzakirə olunmuşdur. Təcdid və islah anlayışlarının İslam mütəfəkkirləri tərəfindən işlənmə dərəcəsi də tədqiqata cəlb edilmişdir. Həmçinin müasir dövrdə müsəlmanların fəaliyyətlərinə istiqamət verən məsələ və təlimatlar da öz əksini tapmışdır.

Tarixlər Hicri təqvim ilə göstərildikdə HT, Qriqori təqvimi ilə göstərildikdə QT qısaltmaları ilə qeyd edilmişdir. Ehtiyac olduqda ərəb mənşəli sözlər mötərizə içində yazılmışdır.

Təsis edildiyi 1981-ci ildən bu vaxta kimi Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ) bütün dünyada ciddi elmi fəaliyyətlərlə diqqəti cəlb edir. BİFİ müxtəlif elmi tədqiqat proqramları həyata keçirir, seminar və konfranslar təşkil edir, sosial elmlər və teologiya sahəsində elmi kitablar dərc edir ki, həmin kitablar ərəb və ingilis dillərində yeddi yüzdən artıq adda nəşr edilmiş və əsas dillərə tərcümə olunmuşdur.

2008-ci ildə Kuala Lumpurda təsis edilən Beynəlxalq Ali İslam Elmləri İnstitutu (BAİEİ Malayziya) isə İslam dini ilə bağlı praktiki, müvafiq məsələləri diqqət mərkəzində saxlayan müstəqil tədqiqat mərkəzidir. BAİEİ Malayziya İslam dünyası və İslam dininin digər sivilizasiyalardakı rolu ilə bağlı seminarlar keçirir və müxtəlif kitablar nəşr etdirir. İnstitut bütün dünyada geniş spektrli və dinamik bir foruma çevrilmişdir.

BAİEİ Malayziya "İslam və sivilizasiyaların intibahı" adlı beynəlxalq indeksli, rüblük jurnal, iki aydan bir "BAİEİ Bülleteni, İslam və aktual məsələlər", kitablar, monoqrafiyalar və silsilə nəşrlərlə diqqət mərkəzindədir. İnstitut keçən doqquz ildə müxtəlif mövzulara həsr olunmuş (ümumi sayı 280 olmaqla) seminarlar, müzakirələr, yerli və beynəlxalq konfranslar təşkil etmişdir. BAİEİ Malayziyanın fəaliyyət və nəşrləri haqqında www.iais.org.my saytından məlumat əldə edə bilərsiniz. Professor Kamalinin şəxsi veb səhifəsi isə www.hashimkamali.com-dur.

BİFİ-nin London ofisi *və* BAİEİ Malayziya, Kuala Lumpur
Fevral, 2018-ci il

# İslamda təcdid, islah və sivilizasiyaların yenilənməsi

## GİRİŞ VƏ ÜMUMİ ANLAYIŞLAR

İslam düşüncə tarixi islah və təcdid prinsipləri çərçivəsində müəyyən islahatların aparılması və yenilənmə ənənəsi ilə səciyyələnir. Burada əsas məqsəd mövcud reallıqları və sosial dəyişiklikləri islahatlar və yenilənmə vasitəsilə həm Quranın, həm də sünnətin ali və universal mahiyyəti ilə bütünləşdirməkdir. Bu baxımdan islah və təcdid həmişə müsəlmanların status-kvosunun dəyişməsi üçün təkan olmuş və Quranla sünnətin yeni şərhi üçün stimul yaratmışdır. Müsəlmanlar şərh və ictihad metodologiyasını əsas almaqla Quran və sünnəti qavramalı, İslam dininin əsl mahiyyətini inkar edən iddiaları qəbul etməməlidirlər (1).

Kitab iki hissədən ibarətdir. Birinci hissədə "təcdid" sözünün təhlili aparılmış, onun mənası, işlənmə yeri və mənşəyi haqqında məlumat verilmişdir, həmçinin elmi inkişafa təsiri şərh olunmuşdur. İkinci hissə "islah" sözü ilə bağlıdır. Bu anlayış İslam dinində yenilənmə hərəkatları, Qərb müasirliyi və dünyəviliyə baxış müstəvisində şərh edilmişdir. Məqsədlərin islah və təcdid ilə əlaqəsi də qısa müzakirə və tədqiqat mövzusudur. Müsəlman mütəffəkirlərinin Qərb dünyasının tənqidlərinə cavabları da əsərə əlavə olunmuşdur. Nəticə və tövsiyələrlə yekunlaşan kitabın son hissəsində sivilizasiyaların yenilənməsinin İslam dini kontekstində necə başa düşülməsi məsələsi müzakirə olunmuşdur.

## MƏNASI VƏ İŞLƏNMƏ YERİ

"Təcdid" sözünün mənası yeniləmə, təzələmə deməkdir. Bu cür yenilənmə müzakirə olunan əsas məsələ ilə bağlı baş vermiş dəyişikliklərə aiddir. Yəni müəyyən bir məfhum orijinal vəziyyətdə mövcud olmuş, ancaq sonradan dəyişikliklərə məruz qalmışdır. Dəyişiklikdən əvvəlki vəziyyətin bərpa olunması təcdiddir (2). Deməli, təcdid "ilk variantı təhrif etmə nəticəsində baş vermiş dəyişiklikləri öz ilkin saflığına, təbii vəziyyətə geri qaytarır". Təcdid tamamilə yeni başlanğıclar və yeni prinsiplər ilə əlaqəli deyildir. Aşağıda da izahını verdiyim kimi, təcdid və yenilənmənin mahiyyəti təkcə keçmişin qəbul edilməsi ilə məhdudlaşmır. Bu baxımdan təcdid ilə bağlı mənbələr və anlayışlar çoxölçülüdür və bunların izahı veriləcəkdir.

Müsəlman ailmləri təcdidin bir çox fərqli tərifini təklif etmişlər. Təcdid ilə bağlı ilk məlum olan tərifi İbn Şihab əl-Zöhri (ö.t. 124 HT/724 QT) vermişdir. O yazırdı: "Hədislərə əsasən təcdid Qurana və sünnətə, eləcə də onların tələblərinə biganə qalındığı üçün yaddan çıxan, ləğv edilən anlayışların yenidən xatırlanması və təzələnməsidir" (3). İbn əl-Əsir (ö.t. 606 HT/1210 QT) öz dövrünə görə daha elmi və konseptual izah vermişdir. Əl-Əsirə görə, "təcdid əsas məzhəblər irsinin yenilənməsidir". Mücəddid, yəni təcdidi edən şəxs "hər əsrdə ümmət üçün dini bərpa edən, öz müvafiq imamlarının rəhbərliyi altında məzhəbləri mühafizə etmək vəzifəsi olan nüfuzlu liderdir" (4). Əl- Süyuti (ö.t. 911 HT/1505 QT) yazırdı: "Dində "təcdid" doğru yola dəvət edilmənin təzələnməsi, həqiqətlərin izah edilməsi, təhlükəli yeniliklərin (bidət), ekstremizmin və ya etinasızlığın qarşısının alınması deməkdir". Bu baxımdan təcdid "insanların mənafelərinin, sosial ənənələrin və sivilizasiya və şəriət normalarının müşahidə edilməsi" mənasına gəlir (5).

XX əsrin sonlarında Əl-Qaradavi "təcdid" ilə bağlı belə qənaətə gəlmişdi: "Faydalı keçmişin müvafiq yeniliklərlə əlaqələndirilməsi (əl-qədim əl-nafi və əl-cədid əl-salih) assimilyasiya olmadan xarici dünya ilə əlaqə yaratmaqdır". O, təcdid və ictihad arasında müqayisələr aparmış və əlavə etmişdir ki: "ictihad təcdidin intellektual səviyyəsini və bilik ölçüsünü ehtiva edir, ancaq təcdid psixoloji və praktiki sahələri də əhatə etdiyindən daha geniş anlayışdır" (6). Beləliklə, ictihad və təcdid intellektual müstəvidə eyni dərəcəyə malikdir, ancaq təcdid özündə ümumi fəallığı əks etdirir. Əl-Qaradavinin müasiri olan bəzi alimlər onunla həmfikir idilər. Kamal Əbül Məcid, Munir Şafiq, Ömər Übeyd Həsən, Fəthi əl-Darini və adını çəkmədiyimiz başqaları (7). Lakin Həsən əl-Turabi təcdid anlayışını yalnız dini doktrinaların təzələnməsi və dinin mahiyyət olaraq yenilənməsi çərçivəsində təqdim edənləri tənqid etmişdir. Belə ki, təcdid həm nəzəri, həm də praktiki məsələlər ilə bağlı fərdi və kollektiv icthad anlayışını özündə əks etdirir. Həmçinin təcdid şəriətin vaxt çərçivəsi olmayan təlimatlarını yeni reallıqlar və vəziyyətlər ilə əlaqələndirən və yeni prototip ortaya çıxara bilən anlayışdır (8). Turabi daha sonra əlavə edir ki, dini təcdid iki nöqteyi-nəzərdən izah edilməlidir. Birincisində şəriət öz daxilində tədqiq edilir və onun yenilənməsi əsas məqsəd olaraq qarşıda durur, ikincisində isə sərhədləri aşaraq dini mənbələrin şaxələndirilməsinə kömək edən yeni elementlərin cəlb edilməsi əsas amil olaraq qiymətləndirilir. Təcdid anlayışı daha da genişləndirilərək idarəetmə sisteminə əsaslanan şura mexanizmi müəyyən etmişdir və siyasi islahatların aparılması da daxil olmaqla "bütün sahələrdə ümumi yenilənmə" mənasında istifadə edilmişdir (9).

Təcdidin başa düşülməsi və insanlar tərəfindən mənaların çıxarılması bir çox faktorun təsiri ilə baş vermişdir. Bunlardan biri tarix faktorudur ki, müxtəlif zamanlarda insanlar və cəmiyyətərin həm qarşılaşdığı problemlər,

həm də şəraitlər heç də eyni olmamışdır. Bu da insanların təcdidi öz təcrübələri və yaşadıqları şərtləri nəzərə alaraq şərh etməsinə səbəb olmuşdur. Digər bir faktor isə şərhçilərin mövqeləri və ixtisaslaşma sahələridir. Hər hansı bir hüquqşünas təcdidi tarixçi və ya sosioloqdan daha fərqli başa düşə bilər. Yamsılama və ya təqlidin uzun müddət hakim anlayış olması da təcdidin dərk edilməsinə mane olan nüanslardandır (10). Təcdid üçün vaxt faktoru çox vacibdir. XX əsrdə yaşayan bir alim və ya fəqihin (fiqh elmi ilə məşğul olan şəxs) fikirləri əvvəlki həmkarlarının yazdıqlarından və ya dediklərindən fərqli ola bilər. Bunun bir səbəbi də təcdidin dinamik və çoxölçülü mahiyyətə malik olmasıdır. Təcdid başqa ideya və prinsiplər ilə də əlaqələndirilə bilər. Təcdid ilə bağlı təfsilatlı materialların mütaliəsi nəzəri çərçivədən çıxmaq və İslam cəmiyyətlərində və sivilizasiyalarında yenilənmə ilə bağlı mövzular haqqında məlumatlı olmaq deməkdir (11). Məhəmməd İmarahın fikrinə görə, ümmətin müasir dövrdə böhran yaşamaması üçün təcdid Quranı rasionallıq və ictihad prinsipi əsasında oxumalı və dərk etməlidir (12).

İslam dini ilə bağlı islahatlara aid olan iki sözə də istinad edilə bilər. *Əl-tağyir* və *əl-tatvir*. "*Əl-tağyir*" (dəyişmək) təcdid ilə sinonimdir və həm əvvəldən mövcud olanın yenidən bərpa edilməsi, yenilənməsi, həm də presedentə istinad etməklə mövcud status-kvonun dəyişməsi üçün cəhd etmək mənalarını ifadə edir. Sonuncusu "tatvir" ilə eynidir. Bunların hər ikisi tədricən baş verən dəyişikliklər və islahatlara aiddir, ancaq dəyişikliklər anidən baş versə, ya da miqyası böyük olsa, onda bu anlayış "inqilab" kimi səciyyələndirilir. Əlavə olaraq dində sual doğuran məsələlərin qarşısının alınması və saflaşdırılması ilə bağlı bəzi dəyişikliklər baş verə bilər. Bunlar daha çox "əltənqih" (qarşısının alınması, saflaşdırılması) mahiyyətində olur və yenilənmə kimi qəbul edilmir (13). Kateqoriyalar

tam dəqiqliklə təsnifatlandırılmır və qarşılıqlı məqamlar mövcuddur.

Digər bir əlaqəli söz isə "ihya" (yenilənmə) sözüdür. Təkmilləşmə və islahatlara ehtiyac olmadan əvvəlki vəziyyətin bərpa edilməsi mənasında istifadə olunur. Onu da qeyd edək ki, bəzi müəlliflər "ihya" sözünü "yeniləmə", "təzələmə", "inkişaf etmə" və "dirçəlmə" mənalarına uyğun kontekstlərdə istifadə etmişlər. Buna İmam əl-Qəzzalinin (ö.t. 1111 QT) məşhur əsəri *"İhya Ulum ə*l-Din"i ("İslam elmlərinin dirçəlməsi") nümunə göstərmək olar. Hindistanın nüfuzlu alimi Vahidəddin Xanın "Təcdid Ulum əl-Din" ("İslam elmlərinin yenilənməsi") əsərində "təcdid" sözü "ihya" mənasını verir. Cəlaləddin əl-Süyuti öz əsərlərində "təcdid" sözünü əsasən "ictihad" mənasında istifadə etmişdir. XX əsrdə təcdidlə bağlı iki əsər diqqəti cəlb edir. Misirli Əbd əl-Mütəal əl-Səidi tərəfindən yazılan "Əl-Mücəddidin fi *ə*l-İslam" və Məhəmməd İqbalın müəllifi olduğu "İslamda dini düşüncənin yenidən bərpa olunması" kitabları. Bu əsərlərdə "təcdid" ilə bağlı müxtəlif məsələlər müzakirə olunur (14). Son dövrlərdə Məhəmməd Əbduh və Rəşid Ridadan başqa "təcdid" ilə bağlı fikirlərini deyən alimlərə Yusif əl-Qaradavi, Məhəmməd əl-Qəzzali, Əbdül Əla Maududi, Həsən əl-Turabi, İsmayıl Raci əl-Fərruxi, Fazlur Rəhman, Taha Cabir Ələlvani və başqalarını nümunə göstərmək olar. Bu alimlərin "mücəddid" olaraq qəbul edilməsi ilə bağlı müəyyən tərəddüdlər mövcuddur. Lakin onların elmə töhfələri danılmazdır. Qloballaşma prosesinin baş verməsi, ideyaların sürətli şəkildə irəli sürülməsi, həcminin geniş olması və başqa buna bənzər səbəblərə görə təcdid anlayışının da dəyişməsi müşahidə olunur (15).

Hərəkat və dəyişikliyə olan ehtiyacın əhəmiyyətini göstərməsi baxımından ərəb dilində istifadə olunan *"əl-nahdah"* və *"əl-şahvah"* (oyanma, intibah, bərpa olunma, geri qayıtma) sözlərinə istinad etmək lazımdır. Bəzi

hərəkatlarda keçmiş irsin bərpa olunması üçün bu sözlərdən deviz kimi istifadə olunur. Bəziləri müasirlik və qərbləşmə ilə bağlı tənqidi yanaşma nümayiş etdirir, başqaları isə daha tarazlı təcdid anlayışına üstünlük verir (16).

Özünəməxsus dinamizminə görə, təcdid, demək olar ki, heç vaxt əvvəldən müəyyən edilən metodologiya və ya qaydalar çərçivəsində təhlil olunmamışdır. Buna nail olunsaydı, müsəlman alimlərinin İslam həqiqətləri ilə bağlı narahatlığı müəyyən mənada başa düşülərdi. Əl-Qaradaviyə görə, "həqiqi mücəddid dini elə dinin özü ilə dirçəldən insandır. Din ilə əlaqəsi olmayan məfhumların dinlə əlaqələndirilməsi prosesi təcdid deyildir" (17). Lakin Əl-Qaradavi bəzi şəxslərin din və onun prinsiplərinə təcdid üçün bağlı olması iddialarını qəbul etmir. O qeyd edir ki, aydın şəkildə yazılan mənbə ilə İslam dinində təcdid mümkündür, ancaq bu dinin əsas sütunları və inanclarını təcdid adı ilə dəyişmək düzgün deyildir (18). Spesifik, məxsusi məsələlər xaricində İslam dininin bütün sahələrində təcdid mümkündür.

Təcdidə olan ehtiyac həm normalar, həm də ənənələr fonunda ortaya çıxır. Müəyyən inkişaf dövrlərində təqlid, müstəmləkəçilik, həddən artıq dünyəvilik və qloballaşma kimi şərtlər nəticəsində İslamın əsl tələbləri və əsas təməlləri diqqət mərkəzindən uzaqda qalmışdır.

İslam tarixində təcididin mühüm rol oynaması, durğunluq dövrü və eləcə də təqlidin yayılması halları çox müşahidə olunmuşdur. Əsassız fikirlər müəyyən vaxtlarda yaradıcı təfəkkürün və ictihad qapısının bağlı qalması ilə nəticələnmişdir. Lakin insanların şəriətin ali məqsədlərinə öz töhfəsini verən Əbu Həmid əl-Qəzzali, İbrahim əl-Şatibi (ö.t. 1388 QT), siyasi dirçəlişin bayraqdarı, bilik dağarcığı Təqiyyəddin ibn Teymiyə (ö.t. 1328 QT), Əl-Rəhman ibn Xaldun (ö.t. 1406 QT) və Əl Dəhləvi (ö.t. 1762 QT) və başqa mücəddid və maarifçilərə ehtiyacı var

idi. Hətta Səlahəddin Əyyubini (ö.t. 1193 QT) mücəddid kimi görənlər də olmuşdur.

Bu məqamda məlumat bolluğu məsələsinə də toxunmaq lazım gəlir. İllər keçdikcə alimlər dinin əsl mahiyyəti ilə bağlı öz şərhləri, fikirləri və qənaətlərini təqdim etmişlər ki, bu da istənilmədən dinin daha qəliz olması təəssüratının ortaya çıxmasına səbəb olmuşdur. Sələflərinin dinlə bağlı təqdim etdikləri məlumatları əldə etmək əvəzinə insanlar İslam dininin müəyyən bir sahəsi üzrə ixtisaslaşan şəxslərin düşüncələri ilə qarşı-qarşıya qalırdılar. Bu vasitəçilərin fikirləri fərqli olurdu və onların dəqiqləşdirilməsi həddən artıq vaxt və əziyyət tələbə edirdi. Bunun nəticəsində orijinal mənbə və məlumatlara əlavələrin edilməsi mənzərəsi ortaya çıxırdı. İslam dininin mahiyyəti haqqında birbaşa məlumat almaq əvəzinə qaydalar və qarışıq mahiyyətdə anlayışlar təqdim olunurdu.

## TƏCDİDİN MƏNŞƏYİ

*Səhih hədislə*rdə təcdid haqqında məlumatlara rast gəlmək mümkündür *və* bu məsələ alimlər tərəfindən ciddi şəkildə *şərh edilmişdir*. Bir hədisdə deyilir: "Allah hər əsrin *başında* bu ümmət *üçün dinini* təzələyən *bir nəfəri göndərəcək* – inna Allah yabat li-hədisi *əl-ümməti əla ras kul mi*at sanah mən y*ücəddid* laha dinaha" (19).

Burada açar söz "nəyi isə yeniləmək, təzələmək" mənası verən "y*ücəddid"dir*. Bu işin icraçısı olan mücəddid müsəlman cəmiyyətlərində İslam dininin qaydalarının tətbiq edilməsini bərpa edən və *təzələyən şəxsdir*. Bu baxımdan *təcdid cəmiyyətlərdə İslam dininin əsl mahiyyətinə* qayıdış və *tələblərin yenidən bərpa edilməsidir* (20). *Əsas məsələ yeni şərtlər, inkişaf meyilləri nəticəsində İslam dininin biganə qalınmış, təhrif olunmuş və yaddan çıxarılmış* prinsplərini, təməl qaydalarını yenidən qabartmaqdır. Bu prinsiplərin yenidən bərpa edilməsi və İslam dinin əsl mahiyyətini insan-

lar arasında təbliğ etmək mücəddidlərin əsas vəzifəsidir (21). Bir hədis aliminə görə, "təcdid Quran və sünnətin *hökmlərinə əsasən* qadağan edilən məsələlərin yenidən xatırlanması, onlarla bağlı fitva vermək və sünnət ilə ziddiyy*ət təşkil edən yenilikləri (bidət) ləğv etmək deməkdir*" (22). Müəyyən əlavələri nəzərə almasaq (bu haqda sonra məlumat veriləcək), bu tərif *ə*l-Zöhrinin fikirləri ilə eynidir. Qeyd edilən hədis ilə bağlı əlavə şərh verən əl-M*ənavi* (*ö.t.* 1621 QT) yazırdı: "Y*ücəddid laha dinaha*" sünnət və sonradan ortaya çıxan təhlükəli yeni fikirlər (bidət) arasındakı fərqlərin müəyyən edilməsi, aydınlaşdırılması və buna qarşı mübarizə aparılması mənasını verir" (23).

Bu hədis ilə bağlı araşdırma aparan alimlər onu da qeyd etmişlər ki, buradakı çağırış yalnız *hərfi məna çərçivəsində nəzərə* alınmamalıdır. Çünki vaxtaşırı ümmətin rastlaşdığı məsələlər və müşahidə olunan inkişaf ilə bağlı yenilənmə, yeni şərhlərin verilməsi və ictihad ehtiyacı ortaya çıxa bilər (24). H*üquqi və şəri* aspektdən təcdid ictihad ilə eynidir. Hər şey ictihadın metodoloji təlimatları müstəvisində tənzimlənməlidir. Geniş qəbul edilmiş fikrə görə, İslam dininin konstruktiv yenilənmə və bərpa edilmədə əsas vasitəçisi ictihaddır. Bura təcdid də daxil ola bilər, ancaq bu iki anlayış bir-birindən *fə*rqlənir. Belə ki, ictihad əsasən praktiki, fiqhi və *hüquqi məsələlər ilə* bağlıdır, təcdid isə müəyyən *sərhədlər ilə məhdudlaşdırılmır və dinin bütün sahələri, ümmətin həyatı, etnoslar, həyat tərzi və sivilizasiyalar ilə əlaqəlidir*. Nəticədə ictihad iki hissəyə bölünə bilər. Yaradıcı (inş*ai*) *və izah edici* (intiqai). Bunların hər ikisində orijinallıq elementləri və *mənbələrin düzgün başa düşülməsi ilə bağlı təlimatlar olmalıdır.*

Yuxarıda qeyd olunan hədisdən hasil olan mənalardan biri də budur ki, İslam heç vaxt məhv olmayacaq və ya yaddan çıxmayacaq, çünki Allah İslamın daim inkişafı üçün ümmətinə kömək edəcək. Hədis mahiyyət olaraq Allahın təminatının göstəricisidir və ümmətə ümid verir

ki, yaradan doğru yolda olmaq üçün ümmətinə kömək edəcək və çətinliklərə sinə gərməkdə *kömək edəcək*dir (25).

Mücəddidlər aşağıda qeyd olunan göstəricilərə malik olmalıdırlar:

1) İslamda dəyişilən və dəyişilməyən anlayışlar arasındakı fərqi tam dərk etmək. İslamda iman, ibadət, mənəviyyat və dəqiq təlimatlar ilə bağlı əsas məsələləri dəyişmək olmaz. Digər tərəfdən normal həyat fəaliyyətləri (müamalat) ilə bağlı İslam prinsipləri şərhlərə açıqdır.

2) *İstisna şəraitlərdə zərurət ilə bağlı qaydalar və şəriət hökmləri* (darurah, rukuah) haqqında məlumatlı olmaq.

3) Müqəddəs kitabın başa düşülməsində rasionallıq və mühakimə yürütmək (təhlil) bacarığı.

4) *İnsanların hüquqi maraqlarını nəzərə al*maq.

5) Cəmiyyətdə ümumi adətləri müşahidə etmək (26).

*Ərəb dilində istifadə olunan "mə*n" sözü bir nəfərə deyil, çox insana aiddir. H*ədisdə*ki *mücəddid sözü* də təkd*ədir. B*u, bir əsrdə müəyyən yerdə yalnız bir mücəddidin olacağı mənasına gəlməməlidir. Buna görə də bir insan, bir qrup insan və ya hərəkatlar təcdidə cəhd edə bilər. Əvvəlki mənbələrdə daha çox bir mücəddidin ortaya çıxması vurğulanırdı. M*üasir dövrdə alimlər müxtəlif sahələr üzrə mütəxəssislə*r qrupunun təcdid etməsinin tərəfdarıdırlar. Bir mücəddid hüquqşünas, digəri siyasi sahədə alim, başqa biri iqtisadçı ola bilər. Hazırkı vəziyyətə görə təcdid və onunla əlaqəli olan islah konsepsiyası hərəkatlar ilə əlaqəli anlayışlardır və onların həm fərdlər, həm də kollektiv qruplar üzərində ortaq təsiri müasir dövrdə əhəmiyyət kəsb etməkdədir (27). Həmçinin fərdlərin daxili dünyası və davranışları qarşılıqlı əlaqə fonunda formalaşır. Buna *görə* də təcdid və islah ayrı-ayrılıqda nəzərə alına bilməz. Malayziya nümunəsində qeyd edilməlidir ki, 1971-ci ildə yaranan Malayziyanın Müsəlman Gənclər Hərəkatı (ABIM) təcdid və islah kombinasiyasını əsas stimul verici amil kimi nəzərə almışdır. Çünki fərdlərin

mənəvi inkişafı və ədalətli cəmiyyət üçün bu iki faktor böyük əhəmiyyətə malikdir (28).

*İslam yalnız şəxslərin mənəviyyatını nəzərdə saxlamır və fərdlə*rin davranışları, sosial münasibətləri *açıq şəkildə əks olunmadıqda mənəviyyat özü-özlüyündə subyektiv, şərh olunmayan və hə*tta anti-sosial səciyyə daşıya bilər. Bu fikirlər daha çox sufi hərəkatları ilə bağlı qeyd olunur. Sufizmdə daxili, mənəvi dünyanın zahiri dünya ilə inteqrasiyası *İslamın tövhid anlayışı ilə uzlaşır.* Təcdid və islah da qarşılıqlı münasibətdədir və bir-birinin məntiqi davamıdır.

Nəzərə almaq lazımdır ki, təcdid teologiya, fiqh, hədis kimi ənənəvi elm sahələri ilə məhdudlaşmır. Həmçinin elm, texnologiya, iqtisadiyyat və İslam dininin və cəmiyyətlərinin yenilənməsi üçün vacib olan digər sahələr ilə *də* əlaqəlidir. M*üzakirə olunan bir məsələ də mücəddidin* öz dövrünün, yoxsa həzrət Məhəmmədin yaşadığı vaxtın şərtlərini nəzərə alaraq yeniləmə etməsidir. Hədisdə ilk məna əks olunur. "Y*ücəddid* laha dinaha" ifadəsi o mənaya gəlir ki, mücəddidlər öz vaxtlarına uyğun olaraq ümmət üçün yeniləmə işini həyata keçirirlər. Hədisdə "Allah*ın, İslamın və ya* M*əhəmməd peyğəmbərin dini" deyilmir. Bunun əvəzinə ümmətin* inandığı və ibadət etdiyi din anlayışı təqdim olunur (29). Təbii ki, m*ücə*ddid *ümmə*tin tarixini *təqdim etmir, yəni keçmişi təkrarlamır.* Əksinə, müasir kontekstə uyğun olaraq İslam prinsiplərini yenidən tətbiq edir ki, bu da insanların müəyyən ideal və prinsiplər əsasında yaxşı yaşamasına töhfə verir (30).

Hədisdə qeyd edilən "hər yüz ildə bir" ifadəsi necə başa düşülməlidir? Bir çox insan bunu hərfi mənada başa düşmüşdür. Buna görə də *mücəddidin əsrin sonunda və ya əvvəlində gəlib-gəlməməsi ilə bağlı əhəmiyyət kəsb etməyən suallar ilə özlərini məşğul etmiş*lər. Hər hansı bir şəxs yeni əsrin başlamasından bir həftə və ya bir ay əvvəl dünyadan köçsə necə olacaq? Bu məqam Malik ibn Ənəs (*ö.t.* 975), *Əbu Hənifə* (*ö.t.* 767 QT) və *İbn* Hənbəl (*ö.t.* 855 QT) kimi imam-

ların bu hesablama prinsipinə görə qeyd edilən kateqoriyaya aid olmasına mane olardı. *Əslində, əsr sözü müsəlman cəmiyyətlərinin və ya ümumi olaraq* bütün cəmiyyətlərin dirçəlməsi *üçün lazım olan müddətin göstəricisi mahiyyətində başa düşülməlidir. İbn Xaldunun sivilizasiyaların inkişafı və tənəzzülü ilə bağlı nəzəriyyəsi (bu, dörd nəsilə bər*abərdir) bu cür şərhlər üçün əsas ola bilər. Sivilizasiyaların yüksəlişi və tənəzzülü ilə bağlı İbn Xaldunun müəyyən etdiyi *dövr* şablon elm, incəsənət, fərqliliklər, sənaye, idarəetmə və ədalət mühakiməsinə sadiqlik ilə bağlıdır (31). Hədisdən başa düşülən bu olmalıdır ki, təcdid müsəlmanların əsas prinsiplər ilə əlaqədə olmasını təmin edəcək tezlikdə olmalıdır. Rəhman Allah ümmətinə ehtiyac olduğu vaxtda mücəddidlər göndərəcək və bu hadisə istənilən vaxtda baş verə bilər (32). Bəzi müəlliflər bu fikirdədirlər ki, xaos və gərginlik dövrlərində mücəddidlərə ehtiyac olur. Bu baxımdan məşhur "Sünəni Əbu Davud" kitabının müəllifi Əbu Davud əs-Sicistaninin "Fəlakət və xaos" adlı fəsildə təcdid hədisini ilk olaraq qeyd etməsini vurğulamaq lazımdır (33).

*Əvvəlki hissələrdə də qeyd edildiyi kimi, təcdid cəmiyyətlərdə baş vermiş durğunluqlar ilə əlaqəlidir. Mücəddid onların məsuliyyətl*ərini xatırlad*ır və* inkişafın başlaması *üçün t*əkan verir (34). *Müsəlman f*ərd *və qruplar Quranda qeyd edilən bu həqiqəti həmişə xatırlamalıdırlar*: "Həqiqətən də insanlar nəfslərində olanı dəyişmədikcə, Allah da onlarda olanı dəyişməz" (Quran, əl-Rad, 13:11).

Bir çox alimin fikrinə görə, Ömər ibn Əbdüləziz (ö.t. 101 HT/719 QT) və İmam əl-Şafi (ö.t. 205 HT/895 QT) müvafiq olaraq ikinci və üçüncü hicri əsrin mücəddididir. Həmçinin bir çox alim də bu qənaətdədir ki, növbəti əsrlərin əvvəllərində ortaya çıxan Əbulhəsən Əşari (ö.t. 324 HT/936 QT), Əbu Bəkir əl-Baqillani (ö.t. 403 HT/1013 QT) və Əbu Həmid əl-Qəzzali (ö.t. 505 HT/1111 QT) də *müvafiq olaraq üçüncü, dördüncü və beşinci əsrlərin mücəddidləridir.*

Lakin bu alimlərin ilk ikisi mücədddid olaraq qəbul edilir, digərləri isə daha çox aid olduqları məzhəblərin davamçıları tərəfindən mücəddid hesab edilir (35).

Məzhəblərin ortaya çıxması və möhkəmləndirilməsi "ictihad qapısının bağlanmasına", *sərbəst düşüncə və* araşdırmanın qarşısnın alınmasına səbəb olan təqlidin geniş vüsət almasının arxasında duran əsas faktordur. Bəs bu vəziyyət ictihadın edilmədiyi və təqlidin hakim kəsildiyi vaxtlarda təcdiddən bəhs etməyin mənasız olması deməkdirmi? Alimlər təcdidi daha çox məhdud və ancaq aid olduqları məzhəb sərhədləri çərçivəsində izah etmişlər. Lakin bu o demək deyil ki, təcdid nəzərə alınmayan və az istifadə olunan anlayışdır.

"Yuxarıda qeyd edilən hədisi nəzərə alsaq, mücəddid bütün ümmətə aiddir, yoxsa hər ölkə və ya icmanın özünün mücəddidi olmalıdır?" Cavab olaraq vurğulanmalıdır ki, İslamın yenilənməsi prinsipinə əsasən mücəddidlər ümumi olaraq ümmətə aiddirlər. Amma o da qeyd olunmalıdır ki, İslam dininin yayıldığı coğrafiyanın geniş olmasını nəzərə alsaq, fərqli ərazi və ölkələrin öz mücəddidləri ola bilər (36). Peyğəmbər ailəsinin (Əhli Beyt) təcdid etməsi və mücəddid olması ilə bağlı iddialar elm və öyrənmə haqqında olan bir çox hədislərin məzmunu ilə ziddiyyət təşkil edir. Əhli Beyt ilə bağlı məsələ etibarlı olsaydı, *Ömər ibn Əbdüləz*iz və *İmam ə*l-Şafi kimi Əhli Beytə aid olmayan insanların adları çəkilməzdi. Bu məsələ ilə bağlı fikirlərini yazan alimlərdən biri peyğəmbərin Salman Farsinin onun Əhli Beytindın olmasını dediyi hədisə istinad edir. Bu hadisə adı çəkilən sahabə Əhli Beytdən olmasa da, peyğəmbərə olan yaxınlığı və bağlılılığın göstəricisi kimi başa düşülməlidir.

Əl-Qaradavi belə bir fikir irəli sürür ki, qeyd edilən hədisdə təcdid dinin qavranılması, insanların imanının yenidən təsdiq edilməsi və İslamın əsas prinsiplərinə olan öhdəliyin dərk edilməsi kimi başa düşülməlidir. Hədisdə

vaxt keçdikcə sosial dəyişikliklərin qaçılmazlığı da vurğulanır. Baxmayaraq ki, hədisdə konkret olaraq hər hansı təqvimə istinad edilmədən əsrin başlanılması nüansına diqqət çəkilir, bir çox alim bunu hicri təqvimi və ya başqa təqvimə əsasən əsr kimi başa düşür. Həmçinin onun başqa bir təqvimdə müvafiq zaman zərfi ilə uyğunluğu da etiraz doğurmur. Əsrin başlanğıcının Məhəmməd peyğəmbərin doğum, yoxsa ölüm tarixi olaraq qeyd edilməsi ilə bağlı məsələ də həmişə diqqət mərkəzində olmuşdur. Əl-Qaradavi peyğəmbərin Məkkədən Mədinəyə olan hicrətini qeyd edir, çünki bu hadisə bir çox nöqteyi-nəzərdən yeni başlanğıcların əsasını qoymuşdur və təcdid üçün də ən yaxşı başlanğıc nöqtəsidir (38). Bunun bir səbəbi də İslam hicri təqviminin məhz peyğəmbərin hicrəti ilə başlamasıdır.

Bəzi mütəxəssislər zərərli yeniliklərin qarşısının alınmasını (kasrul bida) da təcdid anlayışına əlavə edirlər. Bu proses xaricilər, mütəzilər kimi cərəyanların və başqa fiqh məktəblərinin ortaya çıxmasına səbəb olmuşdur. Sonrakı mərhələdə də hədis alimləri bidət anlayışını bu hədis çərçivəsində izah etməyə cəhd etmişdir. Diqqətlə nəzərdən keçirəndə təcdiddə bidətin qarşısının alınması elementləri də ola bilər. Əndəlüslü hüquqşünas İbrahim əl-Şatibi (ö.t. 1388 QT) düzgün olaraq qeyd edir ki, bu hədis müsbət, pozitiv fikirlər aşılayır və ümumi olaraq ümmətin rifah və yaxşılığı ilə əlaqəlidir (39). Bu baxımdan hədis hər hansı bir cərəyan və məzhəb aspektindən şərh edilməməlidir. Əl-Şatibinin müşahidələri ilə bağlı fikrini bölüşən Abid əl-Cabiri qeyd edir ki, müasir dövrdə təcdid və yenilənmə ortaq məsələlər ilə bağlı və əvvəlki illərdə olmayan praktiki həll yolları tapmaqdır (40).

## İSLAH VƏ TƏCDİD: XX ƏSRDƏKİ YANAŞMALAR

İslah anlayışı müasir kontekstdə XX əsr işlənmişdir. Məhəmməd Camal (ö.t. 1905), Məhəmməd Rəşid Rida (ö.t. 1935) və onların davamçısı Camaləddin Əfqani (ö.t. 1987) bu mövzunu tədqiq edən əsas alimlərdir. Quranda "islah" sözü daha geniş mənada işlənərək 'uzlaşma", "sülhə doğru addımlamaq" və "dini fəaliyyət mənasında" izah olunur.

Quranda "salehlik" və "islah" insanların ümumi rifahı kontekstində ifadə olunur. Ona görə də iman gətirən insanlara düz yolda olmaları (əməli saleh) tövsiyə olunur. "Yaxşılıq etməyi, yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin (dəvəti) isə istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, biz ona böyük mükafat verərik" ( islahın bayna ən-nasi) (Nisa, 4:114). İslah fəsadların qarşısının alınması mənasında da istifadə olunur (Araf, 7:56). İnsanlar sadəcə sülh və əmin-amanlıq üçün deyil, həm də mükafata layiq olmaq üçün yaxşılıq edirlər. "Onlara yaxşılıq etmək xeyirlidir. Əgər onları (öz işinizə) qatırsınızsa, (bilin ki,) onlar sizin qardaşlarınızdır. Allah fəsad törədəni yaxşılıq edəndən ayırd edir. Əgər Allah istəsəydi, əlbəttə, sizi çətin vəziyyətə salardı. Şübhəsiz ki, Allah qüdrətlidir, müdrikdir" (Bəqərə, 2:220) və "Kitabdan möhkəm yapışanlara və namaz qılanlara gəlincə, biz yaxşı işlər görənlərin mükafatını puç etmərik" (Araf, 7:170) (41).

İslah və təcdid arasındakı münasibəti təhlil etdikdə aydın olur ki, təcdid ümumi mənada islaha xidmət etmirsə, elə də böyük əhəmiyyət kəsb etmir. Artıq belə qəbul edilir ki, islah dini, mədəni və intellektual status-kvo üçün yenilik tələb edir. İslam tarixində islah-təcdid vəhdəti inancların sərhədini müəyyən edir. Ümmətin dini və mədəni

həyatının təkamülü ilə bağlı düşündükdə əsas məsələ təcdid-islah ənənəsinin birlik və əlaqənin qorunması üçün əsas rol oynamasıdır. Bu baxımdan XX əsrin əvvəlindəki islahat lahiyələrinin əsas məqsədi müsəlman həmrəyliyinə nail olmaq idi. Din XX əsrdə əsas etibarilə Qərb ideya və doktrinalarının təsiri altında olmuşdur (42).

İslam müstəvisində "islah" sözünün dəqiq tərifi ilə bağlı fikir birliyi yoxdur. Məhəmməd Əbduh "islah"ın "təcdid"ə daha yaxın olduğunu qeyd edir: "İnsanların öz düşüncələrini təqlid (yamsılama) qandallarından xilas edərək fikir ayrılıqları çıxan vaxta kimi ümmətin sələflərinin etdiyi şəkildə, yəni Allahın insanlara qavrama ilə bağlı bəxş etdiyi normalara uyğun tərzdə İslam mənbələrini mənimsəyərək dini başa düşməsidir. Bu vəziyyət anlaşılmazlıqları ortadan qaldırmaq və insanlığın rifahı naminə Allahın buyruqlarına əməl etməkdir" (43).

Bu uzun tərif islah çərçivəsində Qərb müasirliyi və rasionallığı elementlərinin inteqrasiya edilməsi cəhdinin göstərilməsi səbəbi ilə bəzi tənqidlərə yol açmışdır. Məhəmməd Əbduh, Camaləddin Əfqani, Xeyrəddin Tunisi (ö.t 1899), Əbdürrəhman Kavakabi (ö.t. 1903) kimi islah hərəkatının əsas simaları həmişə Qərbi kor-koranə yamsılamanın əleyhinə çıxış etmişlər. İbn Rüşd əl-Qurtubinin (ö.t. 1198 QT) təlimatları əsasında əl-Əfqani və Əbduh da bunun qəbul edilməz olduğunu bildirimişlər. İslahat hərəkatları təqlidin faydaları haqqında təbliğatları davam etdirsələr, müsəlman alimləri uğursuz olacaqlar. İslah tərəfdarları müasir problemlərin müasir dövrlə səsləşməsinin vacibliyini vurğulamışlar (44).

Sələfi əsaslı islah hərəkatı ilə radikal dini qrupların fərqi ondadır ki, ikinci qrupa aid olanlar müsəlmanların ilahi qəzəbdən qorunması üçün dini bütün yad ünsürlərdən təmizləməyə cəhd göstərirlər. Onlar İslam ilə bağlı bütün sufi düşüncələrə qarşı çıxır və bidətə qarşı mübarizə aparırlar. Bu hərəkat müasir həyatın şərtləri nəzərə alınmaqla

Quranın yenidən şərh edilməsi və ictihada ehtiyac görmür (45).

İslah hərəkatı sonradan iki qola ayrılmışdır. Bunlardan biri müasirliyə meyilli olsa da (əl-hadatah), digəri keçmiş presedentlərin yenidən təzələnməsi (əl-sələfiyyə ali ihya-iyyah) tərəfdarıdır. İlk qrupa məxsus olanlar daha çox Qasım Amin, Lütfi əl-Seyid, Hüseyn Haykal, ikinci qrupa məxsus olanlar isə Əbduh və Rəşid Rida kimi alimlərin fikirlərini əsas götürürlər. Mustafa əl-Maraği, Əli Əbdürrazıq, Mahmud Şaltut və Abdullah Darraz kimi alimlərin əsərlərində isə ortadoksal mövqe nümayiş olunur (46).

Qeyd edilməlidir ki, sələf (dini əcdadlar) sözündən törəyən sələfilər bəzən təhrif olunur. Məsələn, əksər vaxtlarda hansısa terrorçular tərəfindən istifadə olunur. Nasar Mer tərəfindən düzgün qeyd edildiyi kimi, bu hal sələfilərin terrorizm ilə əlaqələndirilməsi mənasına gəlməməlidir. Sələfi sözünün təhrif olunmuş versiyası bu kontekstdə istifadə olunur. Təbii ki, terroristlərin hər hansı bir hərəkat ilə bağlılığı onların davranışları ilə mühakimə oluna bilər (47).

1924-cü ildə Osmanlı dövlətinin süqutundan sonra yenilənmə və islahatların aparılması yeni mərhələyə qədəm qoydu. Əl-Əfqani və əl-Kavakibi kimi islahatçılar dində yenilənməni əsas siyasi islahatlar ilə əlaqələndirdilər. Məsələn, Quranın prinsiplərindən olan şuranın (məsləhətləşmənin) idarəetməyə inteqrasiya edilməsi ilə bağlı fikir birliyi mövcuddur. Bəzən islahat tərəfdarları cəmiyyətlərdə qadınların mövqelərinin təkmilləşməsi ilə bağlı təkliflər də irəli sürmüşdür. Məhəmməd Əbduh və Məhəmməd əl-Qəzzali qadınların bərabərsizliyinin İslam ilə əlaqələndirilməsinə etiraz edərək bildirmişlər ki, bu cahilliyin və İslam ilə bağlı mənbələrin səhv yozulmasının nəticəsidir. İslahat tərəfdarları həm də İslamda təhsilin dirçəldilməsinin və ali təhsil müəssisələrində elmi fənlərin tədris proqramlarına daxil edilməsinin əhəmiyyətini vurğulamışdır.

Seyid Hüseyn Nəsr təcdidin islahdan daha əhəmiyyətli olmasını qeyd etmişdir: "Təcdid islahdan fərqli olaraq İslam köklərinə malikdir". Hüseyn Nəsr bu fikirdədir ki, İslamın müasir dünyaya cavab verməsində ən vacib element təcdiddir (48). Təcdidin dini mənbələrdə əhəmiyyəti danılmazdır, lakin daha geniş mənada o da vurğulanmalıdır ki, təcdid və islah bir-birini tamamlayır. İslam prinsipləri nöqteyi-nəzərindən islah İslamın məzmun və təlimatlarının ruhu ilə vəhdət təşkil edir. XX əsrdə təcdid ilə bağlı araşdırmalar əl-Əfqani və Əbduh ilə başlayan islah hərəkatı ilə sürətlənmişdir.

Hədislərdən də aydın olur ki, kişi və qadın fərqi qoyulmadan müsəlmanlar üçün elm öyrənmək məcburidir. İslam həmçinin bilik və düzgün davranış arasındakı əlaqəni də izah edir. Düzgünlüyü və ədaləti təbliğ edir, səhv hərəkətlərdən yayınmağa çağırır və bütün bunlar müsəlman cəmiyyətlərində islah və təcdid ilə bağlı dinamik əlaqələri ehtiva edir. İslamda çox əhəmiyyət verilən elm və islah əlaqəsi onu da izah edir ki, mücəddidlər məşhur alimlər olmalıdırlar. Elm öyrənən şəxslər, heç şübhəsiz ki, nəyin düz, nəyin səhv olmasını başa düşəcək, insanların işlərini həll edəcək, cəmiyyətdə ədaləti bərqərar edəcək, həqiqəti dəstəkləyəcək və zülmə etiraz edəcəklər.

İslam Əməkdaşlıq Təşkilatının Məkkə Bəyannaməsində (2005-ci ilin dekabrı) əks olunmuşdur: "Ümmətin bütün hökumətləri və xalqları yekdilliklə qəbul edir ki, İslam cəmiyyəti üçün lazım olan hər bir sahədə islahat və inkişaf zəruridir. Həmçinin bu çərçivə ədalətli idarəetməyə nail olmalı, siyasi əməkdaşlığı genişləndirməli, qanunun aliliyini təbliğ etməli, insan haqlarını qorumalı, sosial ədalət, şəffaflıq və məsuliyyət hissini artırmalı, korrupsiyaya qarşı mübarizə aparmalı və vətəndaş cəmiyyəti institutlarının yaradılması üçün sivilizasiyaların nailiyyətləri və məsləhətləşmə prinsipləri ilə ahəng içində olmalıdır" (49).

Məşhur şiə filosofu və ilahiyyatçısı Murtəza Mütəhhəri (ö.t. 1981) "əl-İsxalliyyah əl-Islahiyyah və Təcdid əl-Fikr əl-İslami" ("İslam düşüncəsinin yenilənməsi və islahatların aparılmasının çətinlikləri") adlı kitabında təcdid haqqında geniş söhbət açmışdır. Onun fikrincə, təcdid və ya İslamın yenilənməsi qaydaların, həmçinin təlimatların dəyişdirilməsi, təhsilin qarşısının alınması ilə dinin özünün yenilənməsi mənasına gəlməməlidir. Əksinə, bu proses dinə inanan insanların ruhlarınını təzələnməsi və bunun nəticəsində fəaliyyətlərin yaxşılaşmasına yol açan din haqqında fikirləşmə metodunun yenilənməsi kimi başa düşülməlidir. Başqa sözlə desək, yenilənməli olan İslam deyil, insanların düşünmə və dərketmə formasıdır (50).

Mütəhhərinin fikirləri dinin zəifləməsi və ya səhv düşüncələrə yol açan fikirlərin təmizlənməsi kimi düşünülə bilər (51).

Demək olar ki, təcdid ilə bağlı bu yanaşma əl-Qaradavinin və digər sünni mütəfəkkirlərinin dedikləri ilə eynilik təşkil edir. Əl-Qaradavi İslam dinində dəyişilməsinə icazə verilən və verilməyən prinsiplər arasında fərqi aydın şəkildə diqqətə çatdırır və bildirir ki, ikinci kateqoriya yenilənmə və təcdid üçün açıq mövzu deyildir. O, elm və ölçü, sərhəd mənbələrinin müəyyən edilməsi üçün rasionallıq, emosiya və ictihad arasında vəhdət təklif edir. Mütəhhəriyə görə, motivasiya olmadıqda elm hər hansı bir fəaliyyətə yol açmaq iqtidarında olmur. Bu hissədə onun düşüncələrində elm ilə bağlı bəzi şəri fərziyyələr təcdid ilə inteqrasiya edilir (52).

Başqa bir yerdə Mütəhhəri təcdidin əhatə dairəsini genişlədərək yazır ki, təcdid sadəcə din ilə məhdudlaşmır və fəlsəfə elmini də əhatə edir. Mütəhhəriyə görə, fəlsəfi yanaşmanın təcdidə əlavə edilməsi bizim ətrafımızda olan əşyalar haqqında məlumat əldə etməyimizə və onların təsirlərini qavramağımıza kömək edir. Elm əşyaların necə işləməsi haqqında məlumat verir, din bizə ümid və motivasiya sahəsində kömək edir, həm də insan məqsədlərinin müqəddəsliyini dərk etməyimizə töhfə verir (53).

## İSLAMDA YENİLƏNMƏ, MÜASİRLİK VƏ TƏCDİD

"İslam modernizmi", "İslamın yenilənməsi" və "İslamda islahlatlar" islah və təcdid anlayışlarında əks olunur. Qeyd edildiyi kimi, bu məsələlər əl-Əfqani, Əbduh və Rida ilə əlaqələndirilir. Bu alimlərin və başqa mütəfəkkirlərin əsərlərində İslam modernizmi ilə məşrutəçilik, elmi araşdırma, müasir təlim metodları, qadın hüquqları, mədəni inqilab kimi anlayışlar İslam dininin təməl prinsipləri ilə əlaqəli təqdim edilir. XX əsrin sonlarında İslamın yenilənməsi, təcdidin İslam dininin əsas təlimatları ilə yaxınlaşdırılması daha təsirli olmuşdur.

1955-ci ildə Abbas Mahmud əl-Akkad Məhəmməd İqbalın əsas kitablarından olan "İslamda dini düşüncənin yenidən bərqərar edilməsi" əsərini ərəb dilinə tərcümə etmişdir. Əbdülmütəal əl-Səidinin əsəri "əl-Muücəddidun fi əl-Islam min al-Qarn əl-əvvəl ilə əl-Rabi Əzhar" da həmin ildə tərcümə olunmuşdur. Hər iki əsərdə də açıq şəkildə izah olunur ki, İslam dininin mənbələrinin əhatə dairəsini yenilənmə və təzələnmə təmin edir. Amin əl-Xulinin "əl-Təcdid fi əl-Din" əsəri də çap olunmuşdur.

Onu da demək lazımdır ki, əl-Səidi 1950-ci illərdə nəşr olunan "Tarixi əl-islah fi əl-Azhar" ("Əzhərdə islahat tarixi") adlı kitabında islah ilə bağlı məsələləri diqqət mərkəzində saxlayaraq təcdid mövzusuna toxunmamışdır. Ancaq 1955-ci ildə yazdığı kitabın əsas mövzusu təcdid idi (54). Təbii ki, bu dəyişikliyin müəyyən səbəbləri var idi. Birincisi, Qərb modernizminin nüfuz dairəsinin genişlənməsi və islah anlayışının İslam həqiqətlərinə əks olan fikir cərəyanları ilə səhv salınması faktlarının dərk edilməsidir. İkincisi isə müstəmləkəçilik dövründə və ondan sonra siyasi devizlərdən ibarət milliyyətçi və dünyəvi ideologiyaların yayılmasıdır. Buna ərəblərin İsrailə məğ-

lub olması və bir çox müsəlman ölkələrində hakimiyyətdə olan qüvvələr ilə İslam hərəkatları arasında savaşları da əlavə edə bilərik. Böhran ab-havası davam edirdi və islah yavaş-yavaş yerini daha güclü əsaslara malik olan təcdidə verdi.

Fəzlürrəhman Malik (ö.t. 1988) islahatlara olan ehtiyacı başa düşdüyünə görə Əbduhu tərifləyir. Həmçinin o, Həsən Bənnanla (ö.t. 1949) Əbüləla əl-Mövdudinin (ö.t. 1979) İslam dinini dünyəviliyə qarşı qoruduqlarını və İslam modernizminin sərhədləri həddən artıq aşmasına qarşı çıxdıqlarını qeyd edir. Lakin Fəzlürrəhman Malik onları "metodlarının" olmaması və əsas məsələlərlə bağlı təklif etdikləri xüsusi həll yollarına görə tənqid etmişdir. O, yeni İslam metodologiyası müəyyən etməyə çalışırdı. Çünki Fəzlürrəhman inanırdı ki, müasir dövrə intellektual səviyyədə cavab vermək üçün ənənəvi metodlar kifayət etmir. O, əsas diqqəti Qurana və müqəddəs kitabın şərh edilməsi üçün mövcud olan düzgün metodologiyaya yönəltmişdir. Malikin misiyası Qurandan ilham alınmasına cəhd etməklə quranmərkəzli etika formalaşdırmaq idi. Çünki aydın formada müəyyən edilmiş etika sistemi olmayanda İslamda ədaləti formalaşdırmaq müşkülləşir (55).

Fəzlürrəhman Malik ənənəvi araşdırmalarda "çox kiçik yanaşmaları" tənqid etmişdir. Onun fikrincə, hüquqşünasların metodologiyasında hüququn əsasını təşkil edən sistematik sosial-etnik nəzəriyyə hiss olunmur. Əslində, hüquqşünaslar yüksək strukturlu hüquqi sistemlərin inkişafı ilə bağlı cəhdlərində bu cür nəzəriyyələrin nəticəsi ola biləcək məsələləri nəzərdən qaçırırlar (56). Quran təlimatlarının Hicaz və daha geniş mənada Ərəbistan insanlarının dini, siyasi, iqtisadi və mədəni həyatları ilə sıx əlaqəsini Fəzlürrəhman Malik izah etmişdir. Lakin bu əlaqə sonralar İslam dini və qanunları ilə bağlı uzun-uzadı davam edən müzakirələr ilə zəifləmiş və mütəmadi olaraq böyüyən boşluq yaratmışdır.

Vəhy tarix və insanlar üçün əlçatmaz anlayış kimi qəbul edilməyə başlanılmışdı. Müəyyən mətnlərin izah edilməsində vacib rol oynayan vəhylər təcrid edilmiş və təfsir, fiqh, teologiya, həmçinin müsəlmanların real həyatları arasında əlaqə zəifləməyə başlamışdır (57). Onu da xüsusi qeyd etmək lazımdır ki, müsəlmanların etika ilə bağlı yazıları şəriət çərçivəsində deyildi və yunan, fars mənbələrinə əsaslanırdı (58).

Camələddin Atiyah təcdid və fiqh ilə bağlı yazılarında fiqhin nəzərdən keçirilməsi və yenilənməsi ilə bağlı bir neçə məsələ qaldırmışdır. İbadət ilə bağlı məsələlərdən başlayan Atiyah qeyd edir ki, ibadətin mənəvi komponentləri ilə müqayisədə ayinlərə daha çox diqqət ayrılır. Psixoloqlar ibadətin və orucun həm psixologiyaya, həm də xarakterə olan bir çox müsbət təsirlərindən bəhs etsələr də, bunlar fiqhdə mövcud deyildir. Quran evliliyi "dostluq və şəfqət – mavaddah və rəhmət" kimi xarakterizə etsə də, fiqh alimləri bunu mülkiyyət müqaviləsi (əqd əl-təmlik) səviyyəsinə endirmiş və Quranın əsl mahiyyətindən, insan ləyaqəti (kəramət), ədalət və ədalətli münasibət (əl-ədl və əl-insan) haqqında dəyərlərindən tamamilə uzaqlaşmışlar (59). İbadət və müqavilədə əsas diqqət rəsmiyyət və şərtlərə yönəldilmişdir. Bu məsələlər də mövzunun əsas mahiyyətini kölgədə qoyur və orta əsrlər cəmiyyətinin dəyərlərini əks etdirir (60). Yenə qeyd edilməlidir ki, İslam birlik və vəhdət dinidir (tövhid), amma fiqh məktəblərinin və ya məzhəblərin müsəlman cəmiyyətlərində fərqlilik ilə bağlı fəaliyyətləri ya şişirdilmiş, ya da səhv başa düşülmüşdür. Hüquq ictihad və araşdırma üçün vasitədir, ancaq müsəlmanlar arasında əsas mahiyyətindən uzaqlaşaraq fanatizm və ayrı-seçkilik vasitəsinə çevrilmişdir. Fiqh alimləri də təkcə kiçik təfsilatlara diqqət yetirmiş, ümumi nəzəri fikir və təlimatlara ötəri nəzər salmışlar. İslamla fiqhin etik dəyərləri və bunların idarəetmə

ilə əlaqələndirilməsi arasında da müəyyən boşluqlar mövcuddur (61).

Atiyah onu da qeyd edir ki, o, cavan vaxtlarında Misirdə ikən Əl-Qaradavi məğrib və işa namazları arasında yerli məsciddə Ramazan dərsləri verərdi. Dərslər dəstəmaz və təmizlik haqqında olurdu. Bir dəfə əl-Qaradavi zarafat edərək deyir ki, "30 gün ərzində biz bu mövzudan kənara çıxa bilmədik". Bu yanaşmanı bir bədəvinin peyğəmbərə yaxınlaşıb ondan namazı necə qılmaq haqqında soruşarkən peyğəmbərin cavabı ilə müqayisə etmək olar: "Mənim necə namaz qılmağıma baxaraq ibadət et" (62).

Məhəmməd Səlim əl-Ava "Əl-Fiqh əl-İslami fi Tariq əl-təcdid" (63) adlı kitabında təqlidin uzun müddətli təsiri nəticəsində fiqh elmindəki durğunluqdan bəhs edir və innovativ cavablar tələb edən bir neçə məsələ qaldırır. Alim qeyd edir ki, siyasi fiqh (əl-fiqh, əl-siyasi, həmçinin əl-siyasah, əl-şəriyyəh) Quranın şəriət və məsuliyyətlə bağlı prinsiplərini inteqarsiya etmək məsələsində uğursuz olmuşdur.

Əl-Ava onu da vurğulayır ki, dövlət başçılarının hakimiyyətə sahib olmalarına məhdudiyyətin qoyulması artıq bir seçim deyildir, zərurətdir və vətəndaşların problemlərinin həllini tapmaq, sərbəst birləşmə hüququ təmin etmək, milli kontekstdə siyasi partiyaların yaranması və digər xalqlar ilə sülh münasibətlərinin qurulması kimi bir çox məqsədə xidmət etmək üçün fiqh müfəssəl ictihad vasiətsi ilə təkmilləşdirilməlidir. Bundan əlavə, qadınların ictimai və siyasi fəaliyyətlərdə iştirak etməsi, onların proseslərdə hakim və şahid qismində olmaları, həmçinin gündəlik həyatlarında mütləq bərabərliyə malik olması kimi məsələlərdə ayrı-seçkiliyin mövcud olduğunu görürük. Eyni suallar qeyri-müsəlmanların əsas hüquqları, cizyə vergisi ilə bağlı fiqhi nəticələr, İslamda incəsənət və musiqi, dindən çıxma ilə bağlı vəziyyətlər, dəlillərin təq-

dim edilməsi, müasir və etibarlı elmi vasitələrlə faktların təqdim edilməsi kimi məsələlərdə də ortaya çıxır.

Səlim əl-Ava yuxarıda qeyd etdiyimiz kitaba Camal əl-Bənnanın "Nəhva Fiqh Cədid" ("Yeni fiqhə doğru") əsərini nəzərdən keçirdikdən sonra başlamış və fiqhin yenilənməsi ilə bağlı yanaşmalarında ortaq cəhətləri müəyyən etmişdir. Əl-Bənna yenilənmə və islahatlar ilə bağlı qəbul edilmiş metodologiyalardan uzaqlaşmışdır. Lakin əl-Avaya görə, ictihad ilə bağlı qəbul edilmiş məsələlərə İslam metodologiyaları əsasında yanaşılmalıdır (64).

Yuxarıda qeyd edilən nüanslar müsəlman alimlərin arasında müzakirələrə səbəb olan bir çox məsələləri özündə ehtiva edir. Onların bəziləri yeniləmə və təcdidin ortaya çıxması kimi qiymətləndirilir. XX əsrdə ailə qanunvericiliyi ilə bağlı inkişaf meyilləri hiss olunsa da, bu vəziyyət müxtəlif ölkələrdə qeyri-sabitdir. İstinad etdiyim alimlərin bir qismi sadəcə problemləri aşkar etmir, onların həlli yolları ilə bağlı təkliflər də verirlər. Tədqiqat işinin həcmi daha təfsilatlı yazmağıma imkan vermir, lakin başqa yerlərdə qanunvericilik aktları, araşdırmalar və doktrinalar vasitəsi ilə XX əsrdə İslam qanunlarında inkişaf ilə bağlı müəyyən qədər təsəvvür yaratmağa çalışmışam (65).

XX əsrdə "İslamda oyanış" prosesi sələfi və hüquqi islahatlar çərçivəsində baş vermişdir. Həmçinin müxtəlif aspektlərdən yenilənmə hadisələri öz əksini tapmışdır. Konkret olaraq təcdidə əsaslanan, amma inkişaf hiss olunmayan sahə isə konstitusiya hüququ və hökumət idi. 2011-ci ildə baş vermiş Ərəb baharı və ondan sonrakı tarixlərdəki hadisələr innovativ İslam düşüncəsinin, demokratiyanın və insan haqlarının əks olunduğu mərhələdir. Bu hadisələr xalqın tələb və iradəsini də ortaya çıxardı. Lakin "Ərəb baharı" insanların hüquqlarını təmin etməyən və vəzifədən əl çəkmək istəməyən diktatorların sayəsində istənilən təsiri doğurmadı.

## MƏQAİSİDİ-ŞƏRİYYƏNİN (ŞƏRİƏT MƏQSƏDLƏRİ) UYĞUNLUĞU

Son onilliklərdə İslam hüququnun ən ali məqsədlərindən olan şəriət məqsədlərinə (məqasidi-şəriyyə) marağın artmasının səbəbi ictihad ilə Quranın şərh edilməsi və elmi metodologiyalara qismən də olsa cavab verməsidir. Şəriət məqsədləri islahatçı ideyalar üçün istinad və meyar hesab edilir. Təcdid ilə beş əsas məqsədi əhatə edən hər hansı təşəbbüs, plan və ya məqsəd təklif edildikdə (66) onun həqiqiliyi bu kontekstdə təsdiq olunur. Hər hansı bir təcdid nümunəsi qəbul edilmiş şəriət məqsədlərinə müvafiq olmadıqda İslamın dəyişməz, əsas norma və prinsipləri ilə ziddiyyət təşkil edib-etməməsi nəzərdən keçirilir. Əgər bu norma və prinsiplərə zidd olan bir məqam yoxdursa, onda təcdid etibarlı hesab edilir. Bu baxımdan təcdidin qəbul edilməsi üçün İslam mənbələrindən sübutlar təqdim etməsinə ehtiyac yoxdur. Təcdidin İslamın əsas şərt və prinsiplərinə tətbiq edilməsi məhdud çərçivədə olur. İslamda təcdid anlayışına geniş aspektdən baxanda onun müasirlik və sivilizasiyaların yenilənməsi ilə əlaqəsi üzə çıxır.

Şəriət məqsədlərinin təcdid ilə əlaqələndirilməsi hüquqi konsepsiya olmayan iqtisadi inkişaf ilə münasibətdə dərk edilə bilər. Belə ki, iqtisadi inkişaf və gəlirlərin bərabər bölüşdürülməsi vasitəsilə yoxsulluqla mübarizə həm şəriət məqsədlərinin, həm də təcdidin əhəmiyyətli məsələlərindəndir. Əl-Qəzzali və əl-Şatibi kimi imamlar bu fikirdə olublar ki, İslam düşüncəsi yalnız qadağalar və ya məxsusi olaraq hərfi şərhlər ilə deyil, dinin daha geniş sahələri ilə əlaqəli olmalıdır (67). Bu yanaşma hədəflərə köklənmiş, daha geniş mənada istifadə olunan və müxtəlif aspektlərə aid şəriət məqsədlərinə diqqətin yönəldilməsi ilə mümkün ola bilər.

Müxtəlif aspektlərdən məsələyə yanaşdıqda məlum olur ki, şəriət məqsədləri təcdid ilə təkmilləşir. Bu vaxta kimi təkmilləşdirilməyən şəriət məqsədləri təcdidə əsaslanan araşdırmalar ilə inkişaf etdirilə bilər. Buraya şəriət məqsədlərinin müəyən edilməsində rasionallağın rolu da daxildir.

Məqsədin tamamlayıcı və şişirdici kateqoriyaları onların müəyən edilməsində sistemsizliyi ləğv etmək üçün daha müvafiq göstəricilər tələb edir. Bu sətrlərin müəllifi müxtəlif yerlərdə bu mövzunu müzakirə etmişdir (68), ancaq onu da demək lazımdır ki, şəriət məqsədləri ilə təcdidin əlaqələndirilməsi dini təlimatlar, onların məqsədləri və təcdid ilə bağlı məsələlərin həll edilməsi üçün vacibdir. XXI əsrdə ümmətin təcdid ilə əlaqəli suallarına cavab verə bilmək üçün şəriət ilə bağlı hökmləri təcrid olunmuş vəziyyətdə çıxartmaq və hədəfləri nəzərə almaq lazımdır (69).

## TƏCDİD İLƏ BAĞLI TƏNQİDLƏR

Müstəmləkə dövründən sonra müsəlman dünyasına hakim kəsilən tənqid ab-havası təcididə olan inamı da zəiflətdi. Məsələn, Osmanlı İmperiyasının süqutundan sonra Atatürkün qərbləşmə və dünyəviləşmə fəaliyyətləri fonunda Türkiyədə təcdid ilə bağlı ictimai rəylər dəyişməyə başladı. Rəşid Ridanın da dediyi kimi, təcdid Qərb modellərinin təsiri altına düşmüşdü və bu səbəbdən təcdid-islah ilə bağlı ortaya çıxan sualların cavabları heç də yaxşı nəticə vermirdi. Təcdid artıq peyğəmbərin hədislərində izah edilən məfhum kimi deyil, Qərb müasirliyi kontekstində araşdırılırdı və təbii ki, bu zaman da dəqiqilik ilə bağlı şübhələr yaranırdı. Bəziləri təcdidi dünyəvilik ilə eyniləşdirir və başqa bir qrup isə bunu həm zərərli yeniliklər (bidət), həm də islamın dəyişdirilməsi kimi təq-

dim edirdi (70). Təcdid ilə bağlı iyirminci əsrdəki ümumi məsələlər belə ümumiləşdirilə bilər:

1. Yeni məsələlərə ictihad müstəvisində yanaşma nümayiş etdirən presedent əsaslı təcdid. Bu fikirin tərəfdarları təcdidi əvvəlki illərin presedentləri ilə əlaqələndirmişdir. Həmçinin bu fikirlər sələfilər hərəkatının əsas komponentlərindən biridir. Presedent yalnız dini yazı və mənbələr kimi deyil, həm də keçmişdə mövcud olan məktəblər, elm xadimləri, imamlar kimi başa düşülməlidir. Bu xətti təmsil edənlər məhdud və düzgün idarə olunan ictihadın tərəfdarıdır. Rəşhid Rida, Səid Ramazan əl-Buti və Mahmud əl-Tahhan bu cərəyanın əsas tərəfdarları idilər (71).

2. Quran və rasionallığı birlikdə dərk etməyi təbliğ edən açıq ictihad. Bu fikri Məhəmməd İqbal, Əbdülmütəal əl-Səidi, Amin əl-Xuli və Yusif əl-Qaradavi İslam düşüncəsinin məhdudiyyətlərdən xilas edilməsi, şəriətin və təcididin müasir reallıqlar kontekstində inkişafı ilə bağlı yazılarında irəli sürmüşdür.

3. Metodoloji innovasiyalar və islahatlar vasitəsilə sivilizasiyaların mövcud böhranını həll etməyə istiqamətlənmiş biliklərin islamlaşdırılması və epistemoloji islahat hərəkatı. Bu cərəyan Virciniyada yerləşən Beynəlxlaq İslam Fikri İnstitutu tərəfindən təbliğ edilir. Qeyd edilən institut və onun əsasını qoyan şəxslər bir tərəfdən təqlidi düşüncənin əleyhinədirlər, digər tərəfdən də müasir çətinliklərə Qərb doktrinası "gözündən" baxırlar. Bu fikrin tərəfdarlarına görə, təcdid Quranın və yaradılış reallıqlarının İslam dəyərləri çərçivəsində oxunması ilə düşüncə metodologiyasında islahat aparmaq mənasına gəlir. Əbdülhəmid əbu Süelyman, Taha Cabir əl-Əlvani, İmadəddin Xəlil, Məhəməd Kamal Həsən və digərləri bu fikrin tərəfdarlarındandır (72).

4. Hər hansı bir çərçivə və ya metodologiya ilə məhdudlaşmayan və müasir çətinliklərin ortadan qaldırılma-

sına istiqamətlənmiş qlobal təcdid. Qloballaşma müsəlmanların çətinliklər ilə qarşı-qarşıya qalmasına səbəb olsa da, yenilənmə və təcdid cəhdləri daha geniş mahiyyətdə nəzərə alınmalıdır. Bu cərəyanın tərəfdarları olan Məhəmməd Abid əl-Cabiri, Əbülqasim Hac Əhməd, Əbdülrəhman əl-Kavakibi, Məhəmmad əl-Talbi və başqaları bu qənaətdədirlər ki, keçmişdə müşahidə olunan təcdid hərəkatları müasir reallıqları ancaq dini və keçmiş irs aspektindən nəzərə aldıqlarına görə uğursuzluqlara düçar olmuşdur.

Malik ibn Nabiyə (ö.t.1973) görə, müsəlman islahat hərəkatlarında düzgün planlaşdırma aparılmamış və istiqamətlər nəzərə alınmamışdır. Nəticədə modernist və islahatçı adlanan iki düşüncə məktəbi ortaya çıxmışdır. İlk cərəyan yerli problemlərin hazır həllini tapmaq üçün Qərbə "üz tutduğuna" görə "yolunu azımışdır". İkinci cərəyan isə ənənələr və status-kvoya sadiq qalaraq müasir problemləri həll edə bilməmişdir (73). Başqa bir mütəxəssis isə belə bir müşahidəsini qeyd edir ki, "İslam geniş hədəflərin qarşısının alınması ilə nəticələnən dar düşüncənin qurbanıdır". Təəssüf ki, "sivilizasiyalar ilə əlaqəsi olmayan məsələlər" İslamda yenilənmə hərəkatlarının gündəliyində duran əsas məsələlərdən biridir (74). 2005-ci ildə Qahirə Universitetində "Sivilizasiyalar ilə bağlı dialoq" adlı konfransda Tariq əl-Bişri qeyd etmişdir: "Müsəlman dünyasında müstəmləkə dövründən sonra istifadə olunan "müasirlik" sözü Qərb modernizmi və Qərb sivilizasiyası mənasında istifadə olunur. Müsəlmanlar özlərinə Qərbin "gözlüyü" ilə baxırlar". Eyni tədbirdə iştirak edən digər bir mütəxəssis İbrahim əl-Bayyumi isə məsələyə belə yanaşmışdır: "İslam hərəkatları arasında müasirlik anlayışı Qərb modeli ilə müqayisə və eyniləşdirmələrin aparılması deməkdir. Liberal dünyəvi hərəkatlar heç bir tənqidi yanaşma olmadan bu modeli öz gündəliklərinə daxil etmişdir" (75). Bu məsələ Əbduhun ideyalarının

təsiri altında gender bərabərliyinin tərəfdarı olan Qasım Aminin əsərlərində də qeyd olunur, lakin daha sonra fikirlər Qərbə aid modern cərəyanlarla əvəzlənir və İslam kimliyi Qərb düşüncə tərzinin təsiri altında qalır. Mürtəza Mütəhhərinin təcidid ilə bağlı tənqidi özünün intibah islahatı adlandırdığı iki maneə ilə səciyyələnir. Daxili və xarici. Birincisi, özünü mənfi şablonların məngənəsindən xilas edərək düşüncə azadlığı, gender bərabərliyi, müasir elm kimi İslam ilə əlaqəli yeniliklərə açıq olan dini institut kimi başa düşülür. İkinci faktora görə isə həqiqi yenilənməyə mane olan əsas amil siyasi diktatorluqdur ki, bu da yeni anlayış deyildir, müsəlmanların əsas problemlərindən biridir. Keçmişdə diktatorlar dinə əsaslanaraq özlərinin müqəddəslik statuslarını qanuni çərçivəyə salırdılar. Müasir dövrdə isə siyasi diktatorluq daha fərqli sahələri əhatə edir və dindən ya hakimiyyətə gəlmək, ya da qərəzli siyasi ambisiyaların həyata keçirilməsi üçün istifadə olunur. Buna qarşı çıxmaq zəruridir və xalqın rifahı naminə həqiqət deyilməlidir. Bir də təhsil müəssisələrini siyasi hakimiyyətin təsirindən xilas etmək lazımdır (76). Mütəhhərinin qeyd etdiyi məsələ əhatəli və gələcəyə istiqamətlənmiş planın olmaması və təcdidin özünün daxili zəifliyidir. Bəzən təcdid kimlərinsə xeyrinə müəyyən istiqamətlərə yönəldilir, bəzən də hərdən artıq idealist olur. Bu cür sistemsiz metodologiya təcdidin inkişafını ləngidir (77). Yenilənmə üçün xarici maneələr bunlardır:

- Siyasi və iqtisadi istismar və nəzarət ilə xarici müstəmləkəçilik;
- Qloballaşmanın ortaya çıxmasından sonra İslami dəyərlərə qarşı çıxan cəmiyyətlərin mədəni və mənəvi olaraq ələ keçirilməsi;
- Özümüzü və dünyanı dərk etməyimizə mane olan ideoloji və intellektual təsirlər.

# DİNİ YENİLƏNMƏ İLƏ BAĞLI ARQUMENTLƏR

Mürtəza Mütəhhəri kəlam (əqidə elmi) ilə bağlı araşdırma aparmışdır və buna görə də ilk olaraq onun kitabı ilə başlamaq istəyirəm. Mütəhhəri köhnə kəlam və yeni kəlam olan bu iki anlayışı fərqləndirir. O, müsəlmanların həyatlarından uzaq olması və məntiqə əsaslanan mahiyyətə malik olması baxımından ilk anlayışa tənqidi yanaşır. Onun vurğuladığı yeni kəlam Məhəmməd iqbal, Cəmaləddin Əfqani, Məhəmməd Əbduh kimi XX əsr mütəfəkkirlərinin töhfələrinə əsaslanır. Kəlam ilə bağlı yeni fikirlər tövhiddə əks olunur, müsəlmanların həyatları və insan münasibətləri ilə əlaqəlidir. Növbəti abzaslarda Mütəhhərinin kəlam ilə əlaqəli məsələlərdəki fikirləri ümumiləşdirilir.

Mütəhhəri ümumi olaraq kəlamı belə izah edir: "Kəlam (sxolastik teologiya) İslam cəmiyyətlərində müşahidə olunan yanlış inanclar və fikir yayınmalarına qarşı İslamı müdafiə etmək üçün məntiqə əsaslanan dəlillərin istifadə olunmasıdır" (78).

Məntiqi kəlam İslamda ahəngi təmin etmək üçün təkmilləşdirilsə də, sonrakı inkişaf dövrlərində kəlam dini və fəlsəfi konsepsiyaların məcmusu formasına salınmışdır. Bu əsas prinsiplərdən birini təmin etməyən müsəlman ola bilməzdi. Danışdığımız təcrübə İslamda ilk siyasi fərqliliklərin ortaya çıxmağa başladığı, yunan fəlsəfəsinin yayıldığı və fərqli qrup və inancların formalaşdığı dövrlərdə müşahidə edilmişdir. Hər bir sekta öz hüquqi statusunu təsdiq etmək üçün bundan istifadə edirdi. Həmin zaman fərqli sektalar müxtəlif mənbələrdən əldə edilən dini və fəlsəfi biliklərdən istifadə edərək öz mövqelərini müdafiə etməyə başladılar. Həddən artıq fəlsəfi mövzulara cəlb olunmasına baxmayaraq, kəlam dini əqidənin təməlləri

ilə əlaqəsini qoruyub saxlaya bilmişdir. Bu anlayış əsas mahiyyəti ilə Qadir Allahın mövcudluğu, əsas atributları, qədər, vəhy, peyğəmbərlik, axirət günü, iman, idarəetmə və digər dini məsələlər ilə bağlı idi. Ona görə də təkallahlılıq əsas məna olaraq mahiyyət qazanmış və kəlam İslam teologiyası kimi qəbul edilmişdir.

Sonrakı illərdə bütün bu izahların dini mahiyyəti və bunların fərd və cəmiyyətə necə təsir etməsi ilə bağlı suallar ortaya çıxmışdır. Kəlam tam olaraq məntiqə əsaslanırdı və demək olar ki, gündəlik həyat ilə əlaqəsi olmayan paradoksal dini metodologiya və konseptlərə çevrildi.

İlahi fəaliyyətlərin əhatə dairəsi və insan fəaliyyətinin məhdudiyyəti ilə bağlı kəlamın mənasındakı qeyri-müəyyənlik müsəlmanlara təsir etmişdir. Bu arqument birbaşa məntiq ilə bağlı deyil, Allah və onun yaratdığı varlıqlar arasındakı münasibətlə əlaqəlidir. Rəhman olan Allahın ən qadir varlıq olmasına qədər olan inam istiqamətində inkişaf etdi və insanların məsuliyyəti ilə bağlı bir çox sual ortaya çıxdı. Nəticədə bu ziddiyyətə cəlb olunmuş insanlar öz iddialarını dəstəkləmək üçün hər cür əsaslandırma və metodlara əl atdılar.

Buna alternativ fikir irəli sürənlər qeyd edirdilər ki, Allahın yaratdığı varlıqlar arasında insanın mərkəzdə olması onlara öz hərəkətlərini idarə etmək səlahiyyəti verir. Öz hərəkətlərinə görə insanların məsuliyyət daşıması şəriətdə də əks olunmuşdur. Allahın bütün fəaliyətlərin səbəbkarı olması iddiası qorxuludur. Çünki düz və ya səhv olmasından asılı olmayaraq insanların etdiyi hər hərəkəti Allah ilə əlaqələndirmək düzgün olmaz və bu hal etik öhdəlik anlayışını tamamilə istisna edir.

Təkallahlığın sosial və psixoloji təsiri əsas mövzumuz deyil, amma nəzəri məntiq imanın nəticələrini nümayiş etdirmək üçün ümumi qavrayış və məlumatlara təsir etməməlidir. Ümumilikdə bu cür mövzular elmi araşdırmalar sərhədindən kənara çıxmır və onların sosial düşüncəyə

təsiri minimaldır. Kəlam (əqidə elmi) imanı qorumağı və insanlığa istiqamət vermək misiyası daşısa da, dinə olan təsiri zəifdir (79).

İyirminci əsrin kəlam elmi Quranda qeyd edilən formada İslamın əsas funskiyasını bərpa etməyə yönəlmişdi. Bu hal həddən artıq qarışıq məntiqi arqumentlərin xaricində həyatın ritimini tutmaqda insanlara kömək edir və davam edən təcrübələr ruhu yeniləyir, ümid verir və insanlar üçün stimul yaradır.

Mütəhhəri təsdiq edir ki, Məhəmməd İqbal kəlam ilə bağlı islahata ehtiyacı hiss edərək bu cür yanaşmaya cəhd edən ilk insan olmuşdur. Yalnız Allahın varlığını qəbul etmək əvəzinə insanlar qəlbin nurlanmasına kömək etməklə nəticələnən ilahi əlaqə qurmalıdırlar ki, fəaliyyətsizlik və durğunluq üzərində qələbə çalsınlar (80). Bu fikirlər Malik ibn Nabiyə də təsir göstərmişdir və o, "İslam dünyasının hədəfi" adlı kitabında yazırdı: "Bizim misiyamız Allahın varlığını sübut etməklə məhdudlaşmır O, (Allah) həyat, güc və fəaliyyət, qətiyyət mənbəyi və iradənin sahibi olduğu üçün onun varlığını duymaq bizim qabiliyyətlərimiz çərçivəsindədir" (81).

Müsəlman mütəfəkkilər ənənəvi kəlam elminin müsəlmanların həyatlarına təsirini hiss etmədiklərinə görə bu anlayışda islahatlar aparmaq qərarına gəldilər. O da qeyd olunmalıdır ki, burada başqa faktor da mövcud idi. Hər tərəfdə modernlik yarışı hiss olunduğu üçün dünyada mədəniyyətlər və dinlər arasında misli görünməmiş əlaqə mövcud idi. Əsas məsələ inkişaf və sivilizasiyalar ilə bağlıydı və yeni baxışlar, kəşflər maraq dairələrinin artması və dini kölgədə qoymaqla nəticələndi.

Mütəhhəri vurğulayır ki, əl-Əfqani inkişaf tələblərinə cavab verməsi ümidilə təkallahlıq perspektivini yenidən formalaşdırmağa cəhd etmişdir. Ateizm doktrinalarını tənqid etdi və əsas diqqəti tövhid prinsiplərinə, bütün varlıqların qədərinə (taleyinə), yəni qiyamət günündə

onların sorğu-sual edilmək üçün bir yerə toplanılmasına yönləndirdi. Əl-Əfqani bu iki anlayışın əhəmiyyətini vurğulamış və bunların insanın səhv yola düşməsinə mane olmaq üçün əsas güc olduğunu qeyd etmişdir. Bu anlayışlar sayəsində insanlar saxtakarlıq və xəyanətdən uzaq olaraq əsalətə meyilli olurlar. Əl-Əfqani təkallahlığın sivilizasiyaların inkişafına və bunun da nəticəsində insanların mənəviyyatlarının təkmilləşməsinə səbəb olacağına inanırıdı. Ona görə də illərdir ki, ortaya çıxan təhriflər və əsassız yeniliklər ləğv edilməli idi (82).

Cəmaləddin əl-Əfqanidən təsirlənən Əbduh "Birliyin teologiyası" adlı kitabında ağıl qədər şüurun da əhəmiyyətli olmasını xüsusi qeyd edirdi. İnsan yalnız rasional varlıq deyil, həm də qadir Allahın rəhmətindən və təlimatlarından asılıdır. Kitabda imanlı insanlar üçün çox sayda təlimat mövcuddur (83).

Məhəmməd Əbduh bu qənaətə gəlir ki, tövhid insan ləyaqət və azadlıqlarına təkan verən enerjidir, həmçinin o, insanların bərabər hüquqda yaradılması həqiqətini özündə ehtiva edir. Buna görə də bu dəyərləri inkişaf etdirmək üçün cəhd göstərmək lazımdır. Təkallahlıq bütün inancların tək olan Allaha itaət etmək çərçivəsində olmasının zəruriliyini vurğulamaqla yanaşı, sosial fərqliliklərin ortadan qaldırılması nəticəsində birliyə nail olmaq və insanların azad olmaları kimi məsələləri də özündə əks etdirir. Əbdüh qəbul edir ki, müsəlmanların vaxtaşırı yaşadığı durğunluq dövrlərində İslamda inanc kimi qəbul edilən bir çox məsələdə təhriflər mövcud olmuşdur. Beləliklə, imanlı insanların sayında azalma nəticəsində İslam dininin yayılmasında da zəiflik müşahidə olunmuşdur (84).

Kəlam elmi sahəsində mütəxəssis, Dubayda yerləşən "Kəlam Araşdırma və Media Mərkəzi"nin direktoru, Romada yerləşən Pontifikal Universitetinin Ərəb dili və İslam elmləri üzrə keçmiş professoru Arif Əli Nayed mərhəmətin (rəhm) yenilənməsi ilə bağlı kəskin və yüksək tem-

peramentli arqumentlərlə çıxış etmişdir. Onun Keymbric Universitetində təşkil olunan konfransdakı çıxışı əsasında (sonradan bunu "Sülhün, mərhəmətin və rəhmin artması" adı ilə qeyd edir) ümumiləşdirdiyim fikirləri burada qeyd edəcəm. Nayed kəlam elminin həddən artıq vərdişlər və adətlər səviyyəsinə endirilməsindən, siyasiləşdirilməsindən, radikallaşdırılmasından və din adı altında zorakılıq fəaliyyətləri üçün vasitə halına çevrilməsindən bəhs edir və ümumilikdə ilahiyyat elminin durğunluq yaşamasından söhbət açır: "Öz ənənələrimizin sui-istifadə və təhrif edilməsinə qarşı ciddi mübarizə aparmağa ehtiyac var və buna nail olmalıyıq. Zalımlığa qarşı çıxmaq üçün vəhdət yaratmalıyıq, çünki zalımlıq bütün insanlığa qarşı hücumdur" (85).

Yenilənmiş kəlam Quran və Məhəmməd peyğəmbərin təlimatlarına əsaslanmalı, Allahın rəğbətini qazanmaq üçün ən yaxşı yolun onun yaratdıqlarına qarşı sevgi, mərhəmət hissinə malik olmaqla onlara xidmət etməyin olduğunu əks etdirməlidir. Mərhəmət təcdid və ictihad ilə bağlı İslam ənənələrində yaşamalıdır (86). Müvafiq ilahiyyat elmi həqiqi ənənələr ilə bütünləşməli, insanlığın ümumi rifahı üçün faydalı olmalıdır, qeyri-müvafiq ilahiyyat elminin isə ənənələr ilə səthi əlaqəsi olur, bəzən isə heç olmur və nəticə etibarilə insanlığa zərər verir (87).

Nayed öz arqumentlərini dəstəkləmək üçün müxtəlif Quran ayələrinə və hədislərə nəzər salır. Bu məsələ Quranda belə izah olunur: "Rəbbiniz özünə rəhmli olmağı əzəldən yazmışdır" (əl-Ənam, 6:54). Məhəmməd peyğəmbərin hədisində isə deyilir ki, "Allah mərhəmətli olanlara rəhmətlə rəftar edər. Elə isə sizlər yer üzündəkilərə qarşı mərhəmətli olun ki, səmada olanlar da sizə rəhmət etsinlər" (88).

Buna görə də "biz mərhəmət və rəhmli olmağı dini anlayışın mərkəzində hesab etməli və birlikdə yaşamağı nəzərə almalıyıq" (89). Nayed əlavə edir ki, sünni kəlam

ənənələri (əşarilər, matüridilər və ya hənbəlilər) yenilənə bilməz. Çünki müasir Yəhudilik, Xristianlıq, Buddizm və Hinduizm dinləri ilə qarşılıqlı münasibət olmadan yenilənmə mümkünsüzdür. Yenilənən İslam dininin elmləri müxtəlifliyi nəzərə almadan təcrid olmuş vəziyyətdə inkişaf edə bilməz (90).

Fərqli doktrinası olan müxtəlif icmalar və məktəblər, əlbətdə ki, düz olduğuna inandıqları hadisələrə şahid olmalıdırlar. Ona görə də onlar fərqliliklər gördükdə etiraz və mübahisə edə bilərlər, amma Quranın təlimatı nəzərə alınmalıdır: "Rəbbinin yoluna onları hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır. (əl-Nəhl, 16:125). Biz hər hansı həll yolu təklif olunmayan mübahislərə cəlb olunduqda Allaha etibar edərək onun doğru yolu göstərməsini istəməliyik (91).

## SİVİLİZASİYALARDA YENİLƏNMƏ

Bu hissədə sivilizasiyalardakı yenilənmələrlə bağlı məsələlər izah ediləcəkdir. İslamda insanın müəyyən prinsiplər və sağlam əqidə çərçivəsində həm öz daxilinə, həm də ətraf mühitə nəzər salması və lazım olan buyruqları dərk edib yerinə yetirmə öhdəliyi vardır. Fərdlər və icmalar arasındakı münasibətlər və onların əlaqələrinin necə tənzimlənməsi fiziki və metafiziki məsələlərlə əlaqəlidir. İslam insanın yer üzünün əşrəfi olması məsələsinə çox diqqət yetirir və buna görə də insanlar sosial ədaləti təmin etmək öhdəliyi daşıyır. Həmçinin İslamda xatırlama (zikr), gözəl məsləhət (nəsihət), insanın özü ilə daima mübarizə aparması (cihad) və təbii ki, islah və təcdid hər zaman diqqət mərkəzində saxlanılır. İnsanın unutqanlığın və cahilliyin qurbanına çevrilməməsi üçün zikr və nəsihət çox vacibdir. Nəzərə alsaq ki, təcdid dini öhdəliyin

carçısıdır və İslamda sivilizasiya məsələlərinə də diqqəti yönəldir, onda təcdid İslamda həm dini, həm də praktiki əhəmiyyəti olan ehtiyacdır (92).

İslamın öyrənilməsinin nəzəri mənbəyi Quranda belə izah olunur: De: "Bu mənim (təbliğ, də´vət) yolumdur. Mən və mənə tabe olan (mö´minlər) açıq-aşkar bir dəlillə (insanları) Allaha çağırırıq. Allah pakdır, müqəddəsdir (bütün eyib və nöqsanlardan xalidir, Onun heç bir şəriki yoxdur). Mən isə müşriklərdən deyiləm!" (Yusif, 12:108).

"Allaha çağırırıq" ifadəsi burada şüur və ağıl sayəsində Quranın din ilə bağlı həqiqətlərini dərk etmək mənasında işlənmişdir. Şüurlu şəkildə agah olmaq dedikdə sosial rifah naminə oynadıqları rola təkan vermək üçün imanlı insanların daxili və xarici dünyalarına inteqarsiya etmək nəzərdə tutulur.

Sivilizasiyaların yenilənməsi geniş və çoxistiqamətli bir məsələ olduğundan təcdidin rolu məzmun etibari ilə zəngin və geniş olmalıdır. Təcdid bütün müsəlman icmalarını özündə ehtiva edir və müəyyən bir qrup və region ilə məhdudlaşmır. Təcdid İslamda inanc (ibadət və əqidə) kimi sahələri də əhatə edir. Təhrifləri ortadan qaldırmaq prosesi iman və ibadətin əsası olan düşüncənin təkmilləşməsi müstəvisində baş verir. Əgər dini fəaliyyətlər mahiyyət etibarilə təcrid olacaq dərəcədə vərdiş və adətlər səviyyəsinə düşürsə, bu halda yenilənmə ehtiyacdır. Həmçinin dünyəvilik və müasirliyin təsiri altında qeyri-müəyyənlik yaranarsa, habelə bunların İslam nöqteyi-nəzərindən qəbul edilib-edilməməsi sualı ortaya çıxarsa, təcdid vacib rol oynayır (93).

Təcdid İslamın qayda və prinsiplərində yanlışlıqlar müşahidə edilən məqamlarda da əhəmiyyət kəsb edir. Onu da xüsusi qeyd etmək lazımdır ki, xüsusi sahələr ilə bağlı təcdid, islah və ictihad qrup və ya fərd olmasından asılı olmayaraq Quranın "Biz səndən əvvəl də özlərinə vəhy etdiyimiz məhz kişiləri (elçi) göndərmişdik. Əgər bilmir-

sinizsə, zikr əhlindən soruşun" (əl-Nəhl, 16:43) ayəsinə uyğun olaraq mütəxəssislər tərəfindən yerinə yetirilir. Bu hal ixtisaslaşmanın hər yerdə müşahidə edildiyi müasir həyat üçün çox vacibdir. Şəriət ilə əlaqəli olan təcdid və islah həm Quran, həm də şəriətin idarəetmə məqsədləri və müasir amillər ilə inteqrasiya etməlidir. İslam sivilizasiyası Quranın "ədalətli və seçilmiş ümmət" olma tələbinə (Bəqərə, 2) uyğun olaraq (94) birlikdə yaşamaq prinsipinə sadiqdir. İslam sivilizasiyası inkişaf edir və dəyişikliklər insanların ehtiyac və maraqlarına uyğun formada olur. Digər bir məsələ də qərəzsiz ədalət anlayışıdır.

İslam sivilizasiyası ilə əlaqəli məqamları ümumiləşdirsək, bu nəticəyə gəlmək olar:

1. Yaxşı olanla cavab vermək. Bu məsələ Quranda belə izah edilir: "Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar" (Fussilət, 41:34). Quranın bu təlimatı bir yerdə var olmaq və sülh şəraitində yaşamaq üçün zəruridir (95). Başqa sözlə desək, müsəlmanlar ictimai maraq doğuran məsələlərdə konstruktiv yanaşma nümayiş etdirməli, Quranın ədalət və mənfəət ilə bağlı göstərişlərinə uyğun təşəbbüslərlə çıxış etməlidirlər. Onlar hər şeyi yaxşılıq ilə dəf etməli və düzgün mühakimə yürütməlidirlər.

2. Sivilizasiyaların mədəni, siyasi və sosial-hüquqi komponentlərində pluralizmi tanımaq və təbliğ etmək. Bu məsələ Quranda belə əks olunur: "…Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Lakin (başqa-başqa olmanız) sizə verdikləri sizi imtahan etməsi üçündür. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allaha olacaq və O, ziddiyyətə düşəcəyiniz şeylər barəsində sizə xəbər verəcəkdir" (əl-Maidə, 5:48; bax: Hucurat, 49:13).

3. Digər sivilizasiyalar, icmalar və mənfəət doğuran məslələr çərçivəsində əməkdaşlıq etmək. Bu cür əməkdaş-

lıq elm, ticarət, ətraf mühitə diqqət, terrorizm ilə mübarizə, nüvə və kütləvi qırğın silahları kimi sahələrdə vacibdir.

4. Əhalisinin böyük bir qismi müsəlman olmayan ölkələrdə müsəlman azlıqlar üçün fiqh elmini inkişaf etdirmək. Bu maddə Quran prinsipinə əsaslanmalıdır: "Heç kəs qüvvəsi çatdığından artıq yüklənməz" (əl-Bəqərə, 2:233). Onun direktivləri çətinliklərin yumşaldılmasına xidmət edir. Bu cəhət hər kəsin qanun qarşısında bərabərliyi və bərabər münasibət görmək hüququ əsasında müsəlman ölkələrində milli azlıqlar üçün də öhdəlik müəyyən edir. Dünyada müsəlmanlar və qeyri-müsəlmanlar arasında münasibətləri tənzimləyir.

5. Sivilizasiya daha çox gözəllik, incəsənət və mədəniyyətlə bağlıdır və bu məqamda əsas diqqət İslamın gözəlliyə verdiyi dəyər və təriflərə yönəlir. Flora və faunanın, bağ və çayların gözəl olması üçün Yer kürəsində saysız-hesabsız nemətlərin olması, Allahın quşlarda, heyvanlarda və suda yaşayanlarda gözəlliyi sevməsi ilə bağlı Quranda çox sayda istinad mövcuddur. İki məşhur hədisi qeyd etmək olar: "Allah gözəldir və gözəl olanı sevər" və "Həqiqətən, Allah hər şeydə gözəllik yaratmışdır". Biz də ətraf mühit, digər icmalar və sivilizasiyalar ilə münasibətdə bu gözəllikləri kəşf etməli və yaymalıyıq.

6. Bərabərlik, azadlıq, insan haqları, gender bərabərliyi, qadınların şərəf və ləyaqətlərinin qorunması sahələrində öhdəlikləri yerinə yetirmək. Tez-tez biganə qalınan etik normalara da diqqəti çəkmək istəyirik (96).

7. İslamda sünni və şiə təriqətləri arasında münaqişələrin ortadan qaldırılması üçün qətiyyət. Bu qətiyyət və istək Quranda əks olunan "Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin" (Hucurat, 49:10) ayətinə istinad etməlidir. Bütün icmalarda və ölkələrdəki müsəlmanlar qardaşdırlar. Hər iki təriqətdə İslamın beş şərti və

imanın altı şərtinin eyni olması birliyi şərtləndirən əsas amillərdən biridir.

Onu da əlavə edə bilərəm ki, 2008-ci ilin oktyabrında İslam Beyin Mərkəzi olaraq fəaliyyətə başlayan və Kuala Lumpurda yerləşən Beynəlxalq Ali İslam Elmləri İnstitutu (BAİEİ) (97) İslam elmləri və müasir mövzularda araşdırma aparan qeyri-hökümət təşkilatıdır. XX əsrin sonlarında müsəlmanların geyimi kimi dar çərçivəli məsələlər geniş müzakirə olunmuşdur. Çünki yuxarıda qeyd olunan məsələ İslam sivilizasiyalarının daha vacib problemləri ilə müqayisədə kiçik və əhəmiyyətsizdir. Ədalət, düzgün idarəetmə, yoxsulluğun aradan qaldırılması, elm, texnologiya və ətraf mühit, digər sivilizasiyalar ilə münasibətlər kimi məsələlər, demək olar ki, diqqət mərkəzindən kənarda qalmışdı. Lakin BAİEİ bu mövzuları həmişə diqqət mərkəzində saxlamışdır. BAİEİ rüblük olaraq "İslam və sivilizasiyaların intibahı" adlı jurnal dərc edir, ictimai müzakirələr, konfranslar və seminarlar təşkil edir ki, diqqətdən kənardanda qalan həmin məsələlər araşdırılsın (98).

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Müstəmləkəçilik dövründən sonra yaranan və İslam düşüncə tərzinə mənfi təsirlər göstərən fikir cərəyanlarına baxmayaraq, təcdid İslam ümməti üçün olduqca vacibdir. Bu anlayış müəyyən səbəblərdən əhəmiyyətli və əhəmiyyətsiz hesab edilsə də, İslam icmalarında əsas olaraq qəbul edilmişdir. Çünki bu işin mahiyyəti Quran və sünnətə əsaslanır (99). Hətta bu günün qərbləşmiş müsəlman cəmiyyətlərində belə təcdidin mahiyyətinə biganə qalınmır. Bizim müasir cəmiyyətlərimizin mürəkkəbliyi təcdidin əsas mahiyyəti olan alim-mücəddidlərin rolunu dəyişə bilər. Həmçinin bu gün dövlətlərin idarə edilməsi alimlər ilə yanaşı, texnologiya və başqa sahələrin mütəxəssislərinin də işə cəlb olunmasını tələb edir. Amma bir çox

müsəlman ölkələrində yenilənmə hərəkatlarının baş verməsi bir daha təcdidin əhəmiyyətini və ümmətin təcdidə olan ehtiyacını ortaya çıxardı. Əsas mahiyyətdən uzaqlaşanlar da daxil olmaqla "hər bir müsəlman icmasında gizli təcdid enerjisi mövcuddur" (100).

Müasir elm təcdidin əhatə dairəsini mövcud presedentlərdən daha geniş müstəvidə nəzərə alır. Bu vəziyyət qismən İslamın müasirlik çağırışlarına cavab verməsi, qismən də qloballaşma fonunda ümmətin yeni məsələlər ilə qarşı-qarşıya qalması ilə bağlıdır. İslah və təcdid adı ilə təqdim olunan ideyaların və onların həqiqiliyinin təsdiq olunması elmi müzakirələrin əsas tərkib hissəsidir. Keçmiş presedentlərə bağlı olmaq həddən artıq şişirdilmişdir. Ona görə də bu hadisə islahatçı və yenilikçi hərəkatların mahiyyətlərinin daha dar çərçivədə qavranılmasıyla nəticələnmişdir. Bu gün mövcud olan əsas çətinlik İslami dəyərlərin həqiqiliyi ilə müasir məsələlər arasında tarazlığın müəyyən edilməsidir. Düzgün idarəetmə, iqtisadi inkişaf, elm və texnologiya yalnız keçmiş presedentlər və ya din, şəriət əsasında nəzərə alına bilməz. Elm və sivilizasiya ilə bağlı məsələlərin geniş olması İslama məxsus dəyərlər ilə ziddiyət təşkil etməyən yanaşmalar tələb edir.

Mən bununla bağlı aşağıdakıları təklif edirəm:

- Təcdid dini prinsiplərin ahəngi içində yenilənmə və sosial tərəqqiyə nail olmaq üçün əsas vasitədir. Geniş və çoxistiqamətli məfhumdur və məhdudlaşdırıcı şərhlər səviyyəsinə salınmamalıdır.
- Yenilənmə və təcdidə əsaslanan İslam diskursu həm tarix, həm də zaman anlayışları ilə birlikdə nəzərə alınmışdır və yeni çağırışlara cavab vermək üçün daxili müxtəliflik nümayiş etdirir. XX əsrdə təcdid ilə əlaqəli diskurs yeni yanaşmalar fonunda müşahidə olunsa da, Qərb müasirliyi və beynəlxalq şərait ilə bağlı ziddiyyətlər çərçivəsinə salındı. Beləliklə, təcdid anlayışı daha da genişləndi

və artıq yalnız bir mücəddidin məsuliyyəti hesab edilmir. Təcdiddə cəmiyyət və siyasətdə aparıcı düşüncə liderlərinin, təhsil mütəxəssislərinin və görkəmli media nümayəndələrinin düşüncələri də əsas alınır. Buna görə də təcdid daha geniş kontekstdə əks olunur və yalnız fərdlə mücəddidlərin öhdəsinə buraxılmır.

• Təcdid və islah yenilənmə mənasında bir-birini tamamlayır və İslam prinsiplərinin pozulması şəraitində baş verir. Bu mənada təcdid düzəldici fəaliyyət hesab edilməlidir.

• T*əcdid* ictihadla da tamamlanmalıdır. Təcdid özünün metodologiyası ilə tənzimlənmədiyi halda ictihad və onun törəmələri fiqh elmi ilə zənginləşdirilir. Təcdid birbaşa olaraq Quran və sünnətdən bəhrələnməklə yanaşı, həm də şəriət məqslədlərindən də mənbə olaraq istifadə etməlidir. İctihadın prinsip və metodologiyaları eyni qaydada hüquqi sahədə təcdidin tətbiq edilməsini tamamlayır.

• Təcdid fiqh mövzusu deyil və hər hansı bir elm sahəsinin xüsusiyyətləri çərçivəsinə salınmamalıdır.

• Fərqli fəlsəfə və dünya görünüşlərinə əsaslanan dünyəvi doktrinaların, həmçinin ahəng içində olmayan İslam cərəyanlarının birləşdirilməsinə qarşı cəbhə qurulmalıdır. Səthi uyğunluq əsl ahəngi əvəz edə bilməz. Hər şeyin müvafiq ahəng içində olması qəbul edilən inkişaf ilə nəticələnə bilər, amma məntiqsiz əlaqələndirmələr qısa müddət üçün müvafiq ola bilər. Hətta onlar münaqişələr üçün zəmin yarada bilər və buna görə bu yanaşmadan yayınmaq olmaz.

• Təcdid və islah hər hansı bir elm sahəsi ilə məhdudlaşdırılmır. Hər iki anlayış İslam dinin əsas məğzlərindən olan İslam sivilizasiyalarının məqsədləri, düzgün idarəetmə, yoxsulluğun aradan qaldırılması və İslamın digər sivilizasiyalar ilə münasibətləri müstəvisində nəzərə alınmalıdır.

• Gərginlik, İslama qarşı fobianın geniş vüsət alması və dinə qarşı hücumların artması fonunda İslam haqqında təsəvürlərdə tarazlıq yaratmaq mümkün deyildir. Çılğın siyasət, ekstremizm və zorakılıq sosial atmosferə hakim kəsildikdə təcdid ikinci dərəcəli hesab edilir. Həqiqi təcdid həm İslam, həm də Qərb hökumət və siyasi liderlərinin ortaq amalı olan sülh və əmin-amanlığın hakim olduğu atmosferdən bəhrələnir.

• Müsəlmanlar insan alveri, narkotika istifadəsi, xəstəliklərin çarəsinin tapılması, mənəvi böhran kimi ümumdünya problemlərinin innovativ vasitələr ilə həll edilməsi üçün digər icmalar və xalqlar ilə əməkdaşlıq etməlidirlər. Qloballaşma şəraitində təcdid həm müsəlmanlar, həm də qeyri-müsəlmanlar üçün beynəlxalq mahiyyət qazanır.

• Kəlam elminin tövhid əsaslı kəlam olması ilə bağlı müəyyən işlər görülmüşdür. Lakin İslamın rəhmətə daha çox yaxınlaşdırılması üçün çalışmaq lazımdır. İslam mütəfəkkirləri və dini xadimlər yeni-yeni fikirlər ilə çıxış etməlidir ki, bu sahələrdə istənilən səviyyəyə nail olunsun.

• Təkallahlıq məsələsi müsəlmanların həyatlarına təsir etməlidir və aşkar şəkildə müsəlmanların daxili vəziyyətinə diqqətin yönəldilməsinə səbəb olmalıdır. Bu addım sünni-şiə münasibətlərinin nizama salınması üçün də əsas ola bilər.

**Qeydlər**

1. Con O.Vol "Renewal and Reform in Islamic History: Tajdid and Islah," in John L. Esposito, ed., Voices of Resurgent Islam(New York: Oxford University Press, 1983), s. 32f.
2. İbn Mənzur əl-İfriqi, "Lisan al-Arab", cild. 2, s. 202 və Məhəmməd ibn Əbu Bəkr əl-Razi, "Muxtar al-Şihah", s. 95 –Adnan Məhəmməd İmamah, "Al-Tajdid fi al-Fikr al-Islami (Beirut: Dar ibn al-Jawzi, 2001), s. 19
3. İbn Həcər əl-Asqalani, "Tawali al-Ta'sis li-Maaili Muhammad ibn Idris – Abd al-Rahman al-Haaj Ibrahim, "Al-Tajdid: Min al-Naşş ala al-Khitab: Bahth fi Tarikhiyyat Mafhum al-Tajdid," Al-Tajdid (Kuala Lumpur: IIUM, 1420/1999), cildl. 3, no. 6, s. 100.
4. Mubarak ibn Muhammad al-Jazari ibn al-Athur, "Jami al-Usuli –Ahadith al Rasul, ed., Abd al-Qadir al-Arnaut, 3-cü nəşr., (Beirut: Dar al-Fikr, 1983), cild. 11, p. 321.
5. Cəlaləddin əl-Süyuti, "Al-Jamial-Shaghir –Adnan Muhammad Imamah "Al-Tajdid fi al-Fikr al-Islami (Beirut: Dar ibn al-Jawzi, 2001), səh 19.
6. Yusif al-Qaradavi, "Liqaat və Hiwarat hawl Qadaya al-Islam wa al-Aşr, (Cairo: Maktabah Wahbah, 1992), s. 85-86.
7. Abd əl-Rahman əl-Hac İbrahim, "Al-TajdId: min al-Naşş ala al-Khitab: Bahth fI Tarikhiyyat Mafhum al-Tajdid," Al-Tajdid (Kuala Lumpur: IIUM, 1420/1999), s. 115.
8. Həsən əl-Turabi, "Tajdid al-Fikr al-İslami", 2-ci nəşr., (Jeddah: al-Dar alSuudiyyah li al-Nashr, 1978), s. 176, s. 32.
9. əl-Hac İbrahim, "Al-Tajdid: Min al-Naşş," s. 125.
10. Yenə orda., s. 103.
11. Osman Məhəmməd Bugaje, "Concept of Revitalisation in Islam," (dərc edilməmiş dissertasiya işi), http://dar-sirr.com/Tajdid.html, s. 5.

12. Məhəmməd İmarah, "Azmat al-Fikr al-Islami əl-Muaşir" (Cairo: Dar al-Sharqal-Awsat, 1990), p. 85, p. 83.

13. Əhməd Sidqi əl-Dajjani, "Afkar fI al-Taghyir,". Küveytin Vəqf və İslam İşləri Nazirliyi tərəfindən nəşr edilib (Kuwait: Maktabat al-Awqaf, 1955), s. 20.

14. Bax: Abd əl-Sattar əl-Seyd, "Tajdid al-Fikr al-Islami: Mashruiyyatuh wa Dawabituh"" Mahmud Həmdi Zaqzuq, "Tajdid al-Fikr al-Islami" (Cairo: Wizarat al-Awqaf, 1430/2009), s. 364f.

15. Əbu Bəkr əl-Rafiq, "al-Tajdid wa Ahammiyyatuh fI al-Aşr al hadith,", Mahmud Həmdi Zaqzuq, "Tajdid al-Fikr al-Islami (Cairo: Wizarat al-Awqaf, 1430/2009), s. 603.

16. Ammar əl-Talibi, "Al-Tajdid fi Fikr Malek Bin NabI,", Mahmud Həmdi Zaqzuq, "Tajdid al-Fikr al-Islami (Cairo: Wizarat al-Awqaf, 1430/ 2009), s. 863.

17. Yusif al-Qaradavi, "Hawl Qadaya al-Islam wa al-Aşr", 3-cü nəşr, (Cairo: Maktabah Wahbah, 1427/2006), s. 89.

18. Yenə orda, s. 85.

19. Əbd Allah əl-Xatib əl-Tabrizi, "Mishkat al-Maşabi", red., Məhəmməd Nəsrəddin əl-Albani, 2-ci nəşr., (Beirut: Al-Maktab al-IslamI, 1399/1979), cild. I, hadis nöm. 247. Hədislərlə bağlı 6 əsas kitabda təsdiq olunan hədislər toplusudur. Hədisin təhlili və əhəmiyyəti baradə bax: Məhəmməd Həşim Kamali, "Civilisational Renewal: Revisiting the Islam Hadhari Approach", 2-ci nəşr, (Kuala Lumpur: International Institute of Advanced Islamic Studies, 2009), s. 51ff.

20. Osman Məhəmməd Bugaje, "Concept of Revitalisation in Islam," (dərc edilməmiş dissertasiya işi), http://dar-sirr.com/Tajdid.html, səh. 2-3.

21. Adnan Məhəmməd İmamah, "Al-Tajdid fI al-Fikr al-Islami" (Beirut: Dar ibn al-JawzI, 2001), s. 17.

22. Məhəmməd Şəms əl-Din Azimabadi (ö.t. 1858), "Awn al-Mabud Sharh Sunan Abi Dawud", cild. 11, s.

391, Adnan Imamah, "Al-Tajdid fi al-Fikr al-Islami" (Beirut: Dar ibn al-JawzI, 2001), s. 17.

23. Məhəmməd Abd əl-Rauf əl-Manavi, "Fay· al-Qadir", cildl.2, səh. 357 Adnan Imamah, "Al-TajdId fI al-Fikr al-IslamI" (Beirut: Dar Ibn alJawzI, 2001), s. 17.

24. Sufi əbu Talib, "Al-TajdId wa Darurat al-Tawazun," Əl Əzhər məzunlarının 3-cü Beynəlxalq forumuna təqdim edilmək üçün hazırlanmış konfrans materialı (Kuala Lumpur, 16February 2008), s. 5.

25. Məhəmməd Məsud Yaqut, "Na·arat fI hadIth al-TajdId: fI Hadha al-Qarn Na^taj ila harakah TajdIdiyyah Shamilah wa Mutakamilah wa MustanIrah," http://saaid.net/aldawlah/359.htm, səh. 2-3(accessed 26August 2012).

26. Adnan Imamah, "Al-TajdId fI al-Fikr al-IslamI", s. 26f.

27. Osman Bakarın seminar işi "Religious Reform and the Controversy Surrounding Islamization in Malaysia," Sinaqapur Milli Universitetində "Cənub-şərqi Asiyada müsəlman islahatları" adlı foruma təqdim dilmişdir (5-6 Mart 2008), s. 4.

28. Yenə orda, s. 7. Osman Bakar əlavə edir ki, təcdid və islahın birlikdə dərk edilməsinə müvafiq olaraq ABIM sosial ədalət üçün mənəvi yenilənmə və sosial rifah üçün ortaq təhsil proqramı təklif edir. 1970-ci illərin ABIM-i Malayziya cəmiyyətinə təsir edən İslamda islahat hərəkatı idi.

29. Məhəmməd Məsud Yaqut, "Na·arat fI hadIth al-TajdId," s. 4. \

30. Osman Bugaje, "Concept of Revitalisation," s. 5.

31. Əbd əl-Rahman ibn Xaldun, "Muqaddimah Ibn Khaldun", red.., Həmid Əhməd Zahir, (Cairo: Dar al-Fajr li al-Turath, 1425/2004), səh. 483

32. Bugaje, "Concept of Revitalisation," s. 4.

33. Xəlil Əhməd əl-Saharanfuri, "Badhl al-Majhud fI hall Sunan AbI Dawud", red., Taqi əl-Din al-Nadvi, "Ki-

tab al-Mala^im, bab ma yudhkaru fI qarn al-mi'atah", (Beirut: Sharikah Dar al-Basha'ir al-Islamiyyah, 1427/2006), cild. 12, s. 335.

34. Yenə orda, s. 5; Əl-Hac İbrahim,"Al-TajdId: Min al-Naşş," s. 104.

35. Bəziləri deyir ki, əsrin sonu nəzərə alınmlıdır. İlk mücəddid Ömər ibn Əbdüləziz ikinci əsrin əvvəlində, yəni ilk əsrin sonunda dünyadan köçmüşdür. Bu o deməkdir ki, ilk əsr peyğəmbərə aiddir.

36. Taqi əl-Din əl-Nadviyə görə, hədisin düzgün qavranılması bunu deməyə əsas verir ki, təcdid bir qrup və ya icma ilə məhdudlaşmır.

37. Hədisdə belə qeyd olunur "Salman bizdən biridir, əhli beytdir-– Salman minna ahl al-bayt." Isam Əhməd əl-Bəşr, "Al-TajdId fI al-Fikr al-IslamI," red., Mahmud Həmdi Zaqzuq, "TajdId al-Fikr al-Islami", s. 91.

38. Yusif al-Qaradavi, "Ummatuna Bayna Qarnayn", 3cü nəşr., (Cairo: Dar alShuruq, 1427/2006), s. 10; "Min Ajli ßa^wah Rashidah: Tajaddud al-DIn wa Tanahhud al-Dunya" (Cairo: Dar al-Shuruq, 1421/2001), s. 13.

39. Şirin Həmid Fəhmi, "Man·uruna al-IslamI al-ha\arI," http://www. islamonline.net/arabic/contemporary/2005/09/article04.html. Bax: əl-Hac İbrahim, "Al-TajdId: min al-Naşş ala al-Khitab," Al-TajdId, s. 102.

40. Məhəmməd Abid əl-Cabiri, "Al-DIn wa al-Dawlah wa TatbIq al-Shariah" (Beirut: Markaz Dirasat al-Wahdah al-Arabiyyah, 1996), s. 133.

41. Bax: Con Voll qeyd, nöm. 1.

42. Suha Taci-Fərruxi, "Modern Muslim Intellectuals and the Qur'an, Introduction", (London: OUP and the Institute of Ismaili Studies, 2004), s. 18.

43. Məhəmməd İmarah, "TajdId al-Fikr al-IslamI ¢inda Muhammad Abduh wa Madrasatuh," Kitab al-Hilal (Cairo, 1980), nöm. 360, s. 40-69.

44. Əsəd Əbu Xəlil, “Revival and Renewal” red, Con. L. Esposito, “The Oxford Encyclopedia of the Modern Islamic World” (OUP, 1995), s. 432f.

45. Yenə orda

46. Əl-Hac İbrahim, “Al-TajdId: Min al-Naşş,” s. 106.

47. Nasar Mer, “Complicating ‘Radicalism’- Counter-Terrorism and Muslim Identity in Britain,” Arches Quarterly (London: Spring 2012), cil. 5, s. 15.

48. Seyid Hüseyn Nəsr, “Traditional Islam in the Modern World” (London: Routledge and Kegan Paul, 1987), s. 92.

49. “Makkah al-Mukarramah Declaration”, 3-cü növbədənkənar İslam Zirvə Konfransı (5-7 Dhu al Qi dah 1426/ 7-8 Dekabr 2005), s. 3.

50. Mürtəza Mütəhhəri, “Reformation and Renewal of Islamic Thought, Eng. tr. by Muhammad Zamin & Zaynab Alayyan, ed., Khanjar Hamiyyah”, (London: MIU Press, 2013), s. 90.

51. Yenə orda, s. 91.

52. Mütəhhəri, “Reformation and Renewal”, s. 114.

53. Mütəhhəri, “Reformation and Renewal”, səh. 112-113.

54. Əl-Hac İbrahim, “Al-TajdId: min al-Naşş ¢ala al-Khitab,” Al-TajdId, s. 109

55. Abdullah Səid, “Fazlur Rahman: A framework for interpreting the ethicolegal content of the Qur’an,”, Taci-Fərruxui, “Modern Muslim intellectuals and the Qur’an” (London: OUP and the Institute of Ismaili Studies, 2004), səh. 42-43.

56. Yenə orda, s. 44.

57. Yenə orda, s 48.

58. Yenə orda, s. 52.

59. Camələddin Atiyah və Vahbah əl-Zuhaili, “TajdId al-Fiqh al-IslamI” (Beirut: Dar al-Fikr, 1422/2002), səh. 31-32.

60. Yenə orda, s. 35.
61. Yenə orda, s. 35.
62. Yenə orda, s. 46.
63. Məhamməd Salim əl-Ava, "Al-Fiqh al-IslamI fI TarIq al-TajdId", 2-ci nəşr., (Cairo: Al-Maktab al-IslamI, 1998), s. 119, s. 272.
64. Yenə orda, səh. 20-222.
65. Məhəmməd Həşim Kamali, "Shariah Law: An Introduction" (Oxford: Oneworld Publications, 2008), fəs. 12, "Adaptation and Reform", s. 246-262.
66. Əsas şəriət məqsədləri həyatın, dinin, insan intellektinin, mülkiyyətin və ailənin qorunmasıdır. Bura əlavə olunan 6-cı məqsəd şəxsi ləyaqət və şərəfdir. Əlavə məlumat üçün bax:, M. H. Kamali, "Shariah Law: An Introduction" (Oxford: Oneworld Publications, 2008), fəs 6, s. 123-140.
67. Yenə orda, s. 40-41.
68. Məhəmməd Həşim Kamali, "Shariah Law: An Introduction" (Oxford: Oneworld Publications, 2008), fəs. 6 "History and Methodology of Maqasid." Bax: "Maqasid, Ijtihad and Civilisational Renewal" (London & Kuala Lumpur: IIIT and IAIS Malaysia, 2012). Əli Cumə, "TajdId Uşul al-Fiqh," Mahmud Həmdi Zaqzuq, "TajdId al-Fikr al-IslamI", s. 357f.
69. Isam əl-Bəşir, "Al-TajdId fI al-Fikr al-IslamI,", Mahmud Həmdi Zaqzuq, "TajdId al-Fikr al-IslamI", s. 94.
70. Yenə orda, s 111-112.
71. Yenə orda, s. 113-114.
72. Əbdül Həmid Əbu Süleyman, "Azmat al-Aql al-Muslim", 3-cü nəşr., (Virginia: Al-Mahad al-İslamI əl-Fikr əl-IslamI, 1994), p. 40, Taha Cabir Ələlvani, "Işlah al-Fikr al-Islami: Madkhal ila Ni·am al-Khitab al-IslamI al-Muaşir", 3cü nəşr., (Virginia: Al-Ma¢had al-¢®lamI lI al-Fikr al-IslamI, 1995), səh. 72-73.

73. Favzia Barium, Malik İbn Nabi, "His Life and Theory of Civilisation" (Kuala Lumpur: Budaya Ilmu, 1993), s. 163-164.

74. Maimul Ahsan Xan, "Human Rights in the Muslim World" (Durham, NC: Carolina Academic Press, 2003), s. 58.

75. Yenə orda

76. Mütəhhəri, "Reformation and Renewal", s. 163-164.

77. Yeə orda, s. 161.

78. Mütəhhəri, "Reformation and Renewal", s. 126.

79. Yenə orda, s. 127-128.

80. Mütəhhəri, "Reformation and Renewal", s. 129 istinad edib: Məhəmməd Iqbalın "Man and His Faith", s. 26-38.

81. Mütəhhəri, "Reformation and Renewal", s. 128.

82. Mütəhhəri, "Reformation and Renewal", a. 26-27.

83. Yenə orda, s. 130.

84. Yenə orda

85. Aref Əli Nayed, "Growing Ecologies of Peace, Compassion and Blessing: A Muslim Response to 'A Muscat Manifesto" (Dubai: Kalam Research & Media, 2010), s. 25.

86. Yenə orda, s. 18.

87. Yenə orda, s. 21.

88. Məhəmməd b. "İsa al-TirmidhI, al-Jami al-SahIh Sunan al-Tirmidhi"(Beirut: Dar al-Kutub al-¢Ilmiyyah).

89. Nayed, "Growing Ecologies of Peace", s. 24.

90. Yenə orda, s. 16. Haşiyədə Nayed yəhudi alim Stefan Kepnes və xristian alim David Ford ilə birlikdə "Dinlərin uyğunlaşdırılması" layihəsinə cəlb olunması və Oksford tərəfindən nəşr edilməsi planlaşdırılan İslam, Yəhudilik və Xrsitanlıq haqqında kitab hazırlamasından bəhs edir.

91. Yenə orda, s. 19.

92. Şeyx Əbd əl-Qəni Aşur, (əl-Əzhərin həmin dövr üçün fəaliyyətdə olan Şeyxi) "Manhaj alTa¢amul ma¢a al-

Qur'an wa al-Sunnah,", Mahmud Həmdi Zaqzuq, "TajdId al-Fikr al-IslamI", s. 636.

93. Isam əl-Bəşir, "Al-TajdId fI al-Fikr," Mahmud Həmdi Zaqzuq, "TajdId al-Fikr al-Islami", s. 94f.

94. Bax: Məhəmməd Həşim Kamali, "Moderation and Balance in Islam: The Qur'anic Principle of Wasatiyyah" (Kuala Lumpur: IAIS Malaysia, 2010).

95. Yenə orda

96. Yenə orda, pp. 95- 96.

97. Hazırkı müəllif ( BAİEİ) Malayziyanın sədridir.

98. Bax: www.iais.org.my.

99. Osman Bugaje, "Concept of Revitalization," s. 5.

100. Yenə orda

İDRAK